# İMAM HÜSEYN (Ə) MATƏMİNDƏ MƏRSİYƏLƏR

*Kitabın işıq üzü görməsində göstərdiyi maddi dəstəyə görə Almustafa Beynəlxalq Universitetinin Gürcüstandakı nümayəndəliyinə təşəkkür edirik.*

**Tbilisi 2015**

***İLAHİ BİZƏ BU DÜNYADA HƏZRƏT HÜSEYNİN (Ə) ZİYƏRƏTİNİ VƏ AXİRƏTDƏ ŞƏFAƏTİNİ NƏSİB EYLƏ!***

**اَلسَّلامُ عَلَيْكَ يا اَبا عَبْدِ اللّهِ وَ عَلَى الْاَرْواحِ الّتى حَلّتْ بِفِنائكَ عَلَيْكَ مِنّى سَلامُ اللّهِ اَبَداً ما بَقيتُ وَ بَقِىَ اللّيْلُ وَالنّهارُ وَ لا جَعَلَهُ اللّهُ آخِرَ الْعَهْدِ مِنّى لِزِيارَتِكُمْ اَلسّلامُ عَلَى الْحُسَيْنِ وَ عَلى عَلِىِّ بْنِ الْحُسَيْنِ وَ عَلى اَولادِ الْحُسَيْنِ وَ عَلى اَصْحابِ الْحُسَيْنِ**

***Salam olsun sənə, ey Əba Əbdillah və salam olsun o ruhlara ki, sənin qarşında təzim etmişlər. Bizdən sənə Allahın salamı olsun, nə qədər ki, mən varam və nə qədər ki, gecə-gündüz bərqərardır. Allahdan istəyirəm ki, sənin bu ziyarətini mənim son ziyarətim qərar verməsin. Salam olsun Hüseynə, Əliyyibnil Hüseynə, Hüseynin övladlarına, Hüseynin səhabələrinə.***

# İmam Hüseyn (ə) vücudunun bərəkət və özəllikləri

Peyğəmbərimizin əziz nəvəsi, İmam Əlinin oğlu İmam Hüseynin (ə) şəhadət tarixi – Aşura faciəsinə artıq bir neçə gün qaldı. Hər il olduğu kimi, Məhərrəm ayının əvvəlindən sonuna qədər Gürcüstanda özunu müsəlman hesab edən hər bir şəxs məntəqələrdə İmam Hüseyn və onun 72 səhabələrinin həlak olduğu qanlı Aşura gününün xatirəsinə yas saxlayır, hörmətinə əza məclisləri təşkil edər, adına ehsanlar verərlər. Biz iman qəzetinin redaksiya heyəti Peyğəmbər ailəsinin bu qəmini zəmanənin gözlərdən gizlin olan imamı Mehdi Sahibəz-zamana və bütün xalqımıza baş sağlığı verir, əzalarınızın ilahi dərganda qəbul olunmasını diləyirik.

1. **Hidayət məşəli və nicat gəmisi:**

İmam Hüseyn (ə) buyurur: «Bir gün Həzrəti Məhəmmədin (s) xidmətinə yetişdim. Bu zaman Əbi ibn Kəb də orada idi. Allahın rəsulu buyurdu: Xoş gəldin ey Əba Əbdillah, ey yer və göyün zinəti. Əbi dedi: Necə o göyün və yerin zinəti ola bilər bir halda ki, səndən başqası belə deyildir? Həzrət buyurdu: Ey Əbi! And olsun o kəsə ki, məni haqq olaraq növbəti peyğəm-bərlik məqamına seçdi, Hüseyn ibni Əlinin məqamı səmada, yerdən də böyükdür. İlahi ərşin sağ tərəfinə yazılmışdır ki, O Hidayət məşəli və nicat gəmisidir.

Həzrət Hüseyn (ə) vücudunun bərəkətlərindən də biri onun «Hidayət məşəli» və «Nicat gəmisi» olma-sındadır. Bildiyimiz kimi bütün peyğəmbərlər və imamlar məşəllər, nicatverənlər və xilaskarlardırlar. Necə İslam Peyğəmbəri (s) bu haqda buyurur: «Həqiqətən mənim əhli-beytimin məsəli Nuhun (ə) gəmisinə bənzər. Hər kim ona daxil olarsa nicat tapar və hər kim ondan üz döndərərsə həlak olar».

Hədisdə görsəndiyi kimi baxmayaraq ki, bütün əhli-beyt imamları nicat gəmisi olmaq xüsusiyyətinə malikdirlər lakin Hüseynin (ə) islamı qoruyan nicat gəmisi zülm və fəsadla dolmuş zəmanənin təlatümlü ləpələri arasında hərəkət etdiyindən onun adı hədislərdə xüsusi gəlmişdir. Hüseyn-dir ki, öz qiyamı, şəhadəti, ailəsinin əsarəti bahasına fitnə dolu təlatümlü dənizin dalğaları arasında haqsevər-ləri və qafilləri haqq

sahilinə çəkərək onlara nicat bəxş etdi. Və tarix boyu bütün bəşəriyətə öyrətdi ki, zülmün qarşısında amansız olub son ana qədər müqavimət göstərmək lazımdır.

Bəli Hüseyn «hidayət məşəli»dir. Ona görə ki, O cahilliyin, pisliyin qaranlıq zülmətində insanlığa bir çıraq olub onları aydınlığa çıxartdı. Onları bir məşəl kimi haqq nuruna gətirib çıxartdı.

**2. Gizlin və mislisiz məhəbbət:**

İslam Peyğəmbərinin (ə) Hüseyn haqda olan hədislərindən biri ümmətin onun tərəfindən mənəvi təsirlən-məsinə aiddir. Bu barədə Peyğəmbərimiz buyurur: «Möminlə-rin qəlbində Hüseynə nisbət gizlin məhəbbət vardır». Bu kimi hədisləri əsas tutaraq demək olar ki, Allahın istəyi bu imamın məhəbbətinin tarix boyu qəlblərdə yaşamasındadır. Təsadüfi deyil ki, öz qanı, canı və malı hesabına Allahın dinini müdafiə edən bu şəxs Allah yanında xüsusi məqama sahibdir. Elə bu üzdən onun məhəbbəti hətta öz düşmənlərinin belə qəlbində kök salmışdır. Fərəzdəq demişkən: «Düşmənlərin tərəfində olanların qəlbləri onunla idi. Lakin dünyapərəstlik sarıdan qılıncları ona tuşlanmışdır».

O da təsadüf deyil ki, neçə əsr bundan öncə baş vermiş Hüseyn faciəsi ilbəil onu sevən Hüseyn aşıqləri tərəfindən daha da coşqunluqla, daha da kütlə şəkilində yad edilir. Bu günlərdə mübarək adını eşidənlərin qəlbi dolur. Onun məhəbbəti müsibəti bütün imamların hətta Peyğəmbərin qəlbində yaşamışdır. Necə ki, Peyğəmbərimiz buyurur: «Hər zaman övladım Hüseynə baxdıqda acılıq və qəm vücudumdan uzaq olar». (Bəharul-ənvar c.43, səh 309). Və başqa bir yerdə buyurur: «İlahi mən Hüseyni sevirəm və onu sevənləri də sevirəm». (Bəharul-ənvar c.43, səh 281).

**3. Doqquz imamin atası:**

İmam Hüseyn (ə) şəxsiyyətinin özəlliklərindən biri də onun ondan sonra digər 9 imamın atası olmasıdır. Yəni ondan sonrakı imamlar məhz bu imamın övladı İmam Səccadın nəslindən davam etmişdir. Necə ki, İmam Baqir (ə) və İmam Sadiq (ə) buyurmuşdur: «Allah İmam Hüseynin (ə) qətlinin əvəzində o Həzrətə 4 xüsusiyyət bəxş etmişdir: 1) İmaməti onun nəslindən qərar vermişdir. 2) Şəfanı o həzrətin pak türbətində qərar

vermişdir. 3) Onun məqbərəsi kənarında dua etməyi qəbul və müstəcəb saymışdır. 4) Onu ziyarət edənlərin (ziyarət) günlərini ömürlərindən hesab etməmişdir». (Vasail c.10, səh.329).

**4.Şəfaət etmək:**

Şəhidlər ağası İmam Hüseynın (ə) başqa bir məqam üstünlüyü onun Qiyamətdə şəfaət sahibi olmasıdır. Şəfaət etməsindən məqsəd günahkar Peyğəmbər ümmətinə Allahdan vasitəçilik edib bağışlanmaq və əfv diləməsidir. Bu məqamı Allah istədiyi seçilmiş saleh bəndələrinə yəni Peyğəmbər və məsum imamlara vermişdir. Necə ki, Həzrət Əli (ə) buyurmuşdur: «Bizim üçün və bizi sevənlər üçün şəfaət vardır». (Xisal səh.624)

Başqa bir hədisdə isə belə buyurur: «Şəfaətçilər imamlar və möminlərin dostlarıdırlar». (Əl-məhasin c.1, səh. 293).

**5. Onu sevənlər Behişt (Cənnət) əhldirlər:**

İmam Hüseyn (ə) vücudunun fərdi əsər və fəzilətlərindən biri də onu sevənlərinin və hətta tərəfdarlarının da Behişt əhli olmasıdır. Necə ki, Hüzeyfə ibni Yəman deyir: «Bir gün Allahın Rəsulu (s) İmam Hüseynin əlindən tutub buyurdu: «Ey camaat, bu Hüseyn ibni Əlidir. Onu tanıyın. Canım ixtiyarında olan Allaha and olsun ki, o behiştdədir və (hətta) onu sevənləri sevənlər də Behişt əhlidirlər». (Bəhar c.43, səh. 262).

Bir gün Allahın Rəsulu nəvələri Həzrət Həsən (ə) və Hüseynin (ə) əllərindən tutub buyurdu: «Hər kim bu iki uşağı və onların ata-analarını sevsə Qiyamət günü mənim mərtəbəmdə mənimlə birgə olacaqlar» (Kamiluz-ziyarət səh.32).

Habelə O Həzrət buyurdu: «Agah olun, Hüseyn behişt qapılarından bir qapıdır. Hər kim düşmənçilik edərsə Cənnətin iyi ona haram olacaqdır». (Səfineyi-Bəhar səh.257).

**Hacı Ramin İgidov**

# MƏRSİYƏLƏR

### HÜSEYNƏ YERLƏR AĞLAR

«Hüseynə yerlər ağlar, göylər ağlar,
Bətulü Mürtəza, Peyğəmbər ağlar»
(Dilriş)
Hüseynin nohəsin Dilriş yazanda ,
Müsəlman səhlidir ki, kafər ağlar.

Kor olmuş gözlərin qan tutdu Şimrin,
Ki, görsün öz əlində xəncər ağlar.

Hüseynin köynəyi Zəhra əlində
Çəkər qeyha qiyamət, məhşər ağlar.

Atanda hərmələ ox Kərbəladə
Görəydin düşmən ağlar, ləşkər ağlar.

Qucağında görəydin, Ümmüleyla
Alıb nəş'i Əliyyi Əkbər ağlar.

Rübab nisgil döşündə süd görəndə
Əliyyi Əsğəri yad eylər ağlar.

Başında kakili Əkbər həvası,
Yel ağlar, sünbül ağlar, ənbər ağlar.

Yazanda Ali-taha nohəsin mən,
Qələm gördüm sızlar, dəftər ağlar.

Əli, şəqqül-qəmər, mehrab, tilit qan,
Qulaq ver, məscid oxşar, mənbər ağlar.

Əlidən, Şəhriyar, sən bir işarə,
Qucaqlar qəbri Malik Əjdər ağlar.

*Məhərrəmdir, xanım Zeynəb əzası,*
*Bizi səslər Hüseynin Kərbəlası.*
*Daha zəvvarının yox səs-sədası*
*Bu gün Kərbübəla viran olubdur.*
*Hüseyn öz qanına qəltan olubdur.*

## HƏZRƏT ƏLİNİN (Ə) HƏZRƏT FATİMƏNİN (Ə) QƏBRİ ÜSTÜNDƏKİ ZƏBAN HALI

***Fatimə qəbrin üstə mən, gəlmişəm ağlıyam gedəm(2)***
***Evdə yatıb Hüseyn, Həsən, gəlmişəm ağlıyam gedəm(2)***

***

Gün batırı, qara salır, başə Hicaz dağları
Ağlırı dərdimə mənim, həsrətilə bulaqları
Yel əsiri, çalır əcəb, qəmli təranə bağları
Qəmlidi gülşənü-çəmən, gəlmişəm ağlıyam gedəm

***

Evdə gedər gecə hamı, mərdü-zən istirahətə,

Gün batırı Əli batır bəhri qəmü-məlalətə
Boş görə bilmirəm yerin, nail olam ziyarətə
Qəbrivin üstə qüssədən gəlmişəm ağlıyam gedəm

***

Rişeyi-səbri-Heydəri seyli-fəraqətin yolun
Yadə salanda möhnətin  gözlərim əşgilən dolur
Körpə uşaqlar ağlaşır, dördü də gül kimi solur
Yox oların nazın çəkən, gəlmişəm ağlıyam gedəm

***

Rehlət edən zaman atan, başüvə qarə bağladın
Mən belə bildim hicrəti-Əhmədə  sinə dağladın
Bilməz idim yaralısan, sən gecə-gündüz ağladın
İndi o sirr olub əyan, gəlmişəm ağlıyam gedəm

***

Xeymə vurubdu qüssəvü-qəm dili dağidarimə
Yadə salanda yarəvi, əşkim axır üzarimə
Həsrət ilə düşür gözüm qəbzeyi-Zülfüqarimə
Çəkmədim heç qilafidən, gəlmişəm ağlıyam gedəm

***

Aldılar həqqimi mənim, məclisi şur qurdular
Boynuma şal saldılar, şiri-Xudanı yordular
Sən kömək eylədin vəli , vay sənə qəmçi vurdular
Torpağa düşdün onda sən, gəlmişəm ağlıyam gedəm

***

Təhti nəzərdədir  mənim, mənzili-vəhy mənzilim
Sən sağ idin bir az yenə, evdə var idi get-gəlim
Getdin əlimdən indi sən, bağlı qalıb dilim, əlim
Yoxdu bizə gəlib-gedən, gəlmişəm ağlıyam gedəm

***

İndi qəmin nişəst edib  bu dili dağidarimə
Yalvarıram yuxu gələ dideyi-əşkibarimə
Möhsini al qucaqivə, gəl yuxuda kənarimə
Ruh tapa, müvəqqətən, gəlmişəm ağlıyam gedəm

***

Sən evimə gəlin gələn vəxdə yox idi çün anan
Qüssələnərdin hər zaman, göz yaşın eylədin rəvan
Zeynəb ərus olan zaman bəxt evinə gedən zaman
Fatimə neylərəm onda mən? Gəlmişəm ağlıyam gedəm

***

Ya həbibi, əcibi, caə ila qəbrik həbib
Ha! Əliyyün bəşərün keyfə bəşər  oldu qərib
Dur Əli qəbrivin üstə əli qoynunda gəlir
Dolanır başıma dünya necə mən ağlamıyım

***

Qəm qəm üstən yaralı, qəlbimə Zəhra qalanı
Vay mənə, sən yıxılan kuçədə sani dolanır
Zülfüqarı çəkə bilməm, ürəyim parçalanır
Bir belə səhnədə aya necə mən ağlamıyım

## HƏZRƏT ƏLİNİN FATİMEYİ ZƏHRANIN QƏBRİ ÜSTÜNDƏKİ ZƏBAN HALI

Bəqiyə xəstə gəlmişəm, Qəlbi şikəstə gəlmişəm
Məzarın üstə gəlmişəm, Məni qocaltdı ölməyin
Məhəllədə döyülməyin, Qapı dalında qalmağın
Qəmində sinə dağlaram, Dizlərimi qucaqlaram
Tək oturub tək ağlaram
Yaralı Zəhra, vəfalı Zəhra (4)

***

Qəmində sinə dağlaram, Tək oturub tək ağlaram
Dizlərimi qucaqlaram, Yaralı Zəhra, vəfalı Zəhra

***

Bəqiyə xəstə gəlmişəm, Qəlbi şikəstə gəlmişəm
Dözəmmirəm fəraqüvə, Möhsini al qucaqüvə
Vəfalı Zəhra, yaralı Zəhra

***

Ey gülü-bixari Əli, Yarü-mədəd kari Əli
Bəqiyə xəstə gəlmişəm, Qəlbi şikəstə gəlmişəm
Qəbrüvün üstə gəlmişəm

***

Dözəmmirəm fəraqüvə, Dur nəzər et qonaqüvə
Möhsini al qucaqüvə, Var yeri aləmi pozam
Fatimə cani yalqızam

***

Köməksizəm adamsızam, Bax qəmimə məlalimə
Gözdəki əşgi halimə, Ağla mənim bu halimə
Adamsızam, admsızam

***

Hər gecə sinə dağlaram, Dizlərimi qucaqlaram
Tək oturub tək ağlaram, Ey məni bi kömək qoyan
Qüssəli dəhridən doyan, Bikəs əmoğlunam oyan

## HARİS ÖLDÜRMƏ BİZİ

***Haris öldürmə bizi, rəhm qılıb davərə bax***
***Cəddimiz Xətmi-Rəsul Həzrət-Peyğəmbərə bax***

***

Gərçi aləmdə bəla çəkməyə adətdi bizə
Möhnətü-cövrü-cəfa cümlə səadətdi bizə
Bu yetimlik qəmi qürbətdə kifayətdi bizə
Çəkmə xəncər bu iki dərbədəri müztərə bax

***

Könlümüz ayinəsin rəngi küdurət bürüyüb
Cismimiz qürbət ara zülmü-sitəmdən çürüyüb
Canımız guşeyi zindani bəladən əriyib
Sən daha qılma cəfa şiri xuda, Heydərə bax

***

Qılma cari üzə bidadilə qanlı yaşımı
Rəhm qıl qardaşıma, kəs mənim əvvəl başımı
Məni öldürgilən azad elə bu qardaşımı

Həqqi mənzuri qılıb Fatimeyi Əthərə bax

***

Hər bəla vardı cahan içrə bunun cani çəkib
Natəvan cani ilən zilləti dünyanı çəkib
Altı ay ac-susuz möhnəti zindani çəkib
Əriyən cismini gör, həm o axan gözlərə bax

***

Qılma ağuşa qızıl qanına dürri Ədəni
Bu yetim ölsə əgər, olmaz onun dəfn edəni
Qorxusundan necə gör lərzə tutub gül bədəni
Gül üzarindən axan qətreyi-əşki-tərə bax

***

İndi ki, qılmadı təsiri sənə suzü-güdaz[520]
Bari möhlət verin, ey Şümri, qılaq indi namaz
Axiri ömrüdə Həqqilə edək razü-niyaz
Yada sal axirəti, hali dəmi məhşərə bax

***

Sər-səri zülmü Əli gülşənini xar elədi
O iki qönçə gülü xarə giriftar elədi
Heç kim etməzdi bu zülmü ki o qəddar elədi
Ey "Fəna”, sən elə ol şumi sitəm pərvərə bax

## HƏZRƏT ƏLİ ƏSĞƏRİN MƏRSİYƏSİ

***Əlim laylay, balam laylay, Əliyyü-Əsğərim laylay***

***

Əlim səni kim oxladı, Yaraları kim, bağladı
Nəşün üstə kim ağladı, Əlim lay-lay, balam lay-lay

***

Mədinədən gətirmişəm, Bu ərsəyə yetirmişəm
Kərbəlada itirmişəm, Əlim lay-lay, balam lay-lay

***

Dərdindən mən cana gəldim, Əfşan zülfün ələ aldım
Göylərə zəlzələ saldım, Əlim lay-lay, balam lay-lay
***
Başuvu qoy dizim üstə, Yatma isti qumlar üstə
Üzüvü qoy dizim üstə, Əlim lay-lay, balam lay-lay
***
Boğazıma dəyən oxdur, Yazlsa hamıdan çoxdur
Xəcalətəm südüm yxdur, Əlim lay-lay, balam lay-lay
Bağlanıbdır su yolu, ağlama biçarə bala (2)
Çarə yoxdur sinəmi, dağlama biçarə bala (2)
***
İstidir bəs ki, hava isti saraldıb üzüvü
Taqətin yox açasan qanilə dolmuş gözüvü
Vurursan hey əl-ayaq çün itiribsən özüvü
Vurma dırnaq eləmə sinəmi çox yarə bala
***
Bağiban gördü susuzdan, gülü-gülşən saralıb
Laləvü-nəstərənü-jaləvü-süsən saralıb
Əndəlibani-çəmən həsrəti-güldən saralıb
Bülbülüm baxdı düçar oldu gülüm xarə bala
***
Bülbülüm pər vurursan baz edəsən şəhpərivi
Qoyuram ziri-qümaşə balaca əllərivi
Əli qoynunda fələk qoydu yazıq madərivi
Həsrəti dildə baxar həsrəti dildarə bala
***
Çu sitarə  axırsan, mən də dalınca baxıram
Təşnəsən, can verirsən, mən də ləbətşan baxıram
Qəlbimin şö”ləsinin sinəmə dudin yaxıram
Açırsan göz, baxırsan gəh bu diləfkarə bala
***
Mən baxanda yumursan gözlərivi ağlıyısan
Atəşin ahilə qəlbü-sinəmi dağlıyısan

Çeşmə tək əşki-təri gül üzüvə bağlıyısan
Salısan şuri-şərər qəlbi-şərərbarə bala

***

Cam əlində dolanıb əmmələrin xeymələri
Olmadı su xəbəri hər yerə düşdü güzərim
Əyləşən, xeymə gəzən gördü halın var xətəri
Zülflərin aldı ələ saldı başa qarə bala

***

Təşnələblər su deyir çu susuz ahu mələşir
Zikri olmuş nigəran halilə ya hu mələşir
Müztərib vəhşətilə dil dolu tərsu mələşir
Dəstə-dəstə ilişir dami-cəfakarə bala

***

Cigərin suzişinə vardı dodağında güvah
Qoyusan barmaquvi ləblərivə sinədə ah
Vay mənim bəxtimə oldum necə gör bəxti-siyah
Gündüzüm zülmət olub, döndü şəbi-tarə bala

***

And ola canüvə ey rahəti-dil, nuri bəsər
And ola sinədəki ahüvə, ey teşnə cigər
And ola gözlərivin əşkini rüxsarə tökər
Getmərəm bir evə bir sayeyi-divarə  bala

***

Balası oxlanan ahu kimi hər an mələrəm
Elə billəm bələgin gəh açaram, gəh bələrəm
Gül sataşsa gözümə əşgimi gözdən ələrəm
Eylərəm gah sinəmi mən sənə gəhvarə bala

***

Şüəralar yazacaq möhnətimi möhnətilən
Növhəxanlar oxuya qəmli səsi möhnətilən
"Qəmkeşin” əldə qələm dəftər ola fürsətilən
Sözləri zinət ola bəzmi-əzadarə bala

## İMAM HÜSEYN VƏ ƏBÜLFƏZLİN DEYİŞMƏSİ

Əbbasım, qardaşım, qəm günü yoldaşım (2)
Aç qanlı gözün, sənə var sözüm (2)
Bu ağır qəmə, mən necə dözüm?! (2)

***

Ya Əbbas, al nəfəs, sən səyimə ver səs
Bu halətindən, qaldım nigaran
Gəl etmə məni, hali pərişan

***

Cəngdə çox döyüşdün, artıq haldan düşdün
Zalimlər səni, edibdir xəstə
Qoyubsan başın, isti qum üstə

***

Canım qurban sənə, bir nəzər et mənə
Nə olub sənə, ey nuri Xuda
Gül ləblərindən çıxmayır səda

***

Gəl məni qoyma tək, dur ayağa gedək
Axı bu çöldə, tənha qalmışam
Mən də sənin tək, yaralanmışam

***

Sinən üstə başım, hey axır göz yaşım
Əlimdən gedir, əziz qardaşım
Tənha sən idin, mənim qardaşım

***

Qandır əl-ayağın, quruyub dodağın
Bu isti yerdə, susuz qalmısan
Su görməyən gül, kimi solmusan

***

Aç gözün bir təhər, bax gör olur nələr
Bağda ağlayır, güllər çiçəklər
Səni görməyə, gəlib mələklər

***

Ey Əbbas Hüseynəm, yanuva gəlmişəm
Heç olmasa de, sən ürək sözün
Nə olub qardaş, gülməyir gözün
***
Ey yarü-yavərim, sənsən balü-pərim (2)
Yatma qumlar üstə, qolsuz sərləşgərim
Qəlbim döyünür, qardaş dur gedək
Düşmən sevinir, qardaş dur gedək

## ƏBBAS, ƏBBAS

Oğulsuzam mən, qardaşsızam mən (2)
***
Qardaş yandı evim, sənsən arxam elim
Səni bu halidə, görcək sındı belim
Əşgivi qanə, qatma Əbülfəz
Düşmən çalır əl, yatma Əbülfəz
Əbbas, Əbbas
Oğulsuzam mən, qardaşsızam mən
***
Sən nə ba vəfasan, dərdə mübtəlasan
Tez gəl sən yoluvi, gözləyir ulduzlar
Ay batsa batar, göydə ulduzlar
Yoluvi gözlür, xeymədə qızlar
Əbbas, Əbbas
Oğulsuzam mən, qardaşsızam mən
***
Ey qəmər təl"tim, izzətim şövkətim
Belimin qüvvəsi, dizimin taqəti
Yıxdı evimi, Ali-üməyyə
Əsir olacaq, Şimrə Ruqəyyə
Əbbas, Əbbas
Oğulsuzam mən, qardaşsızam mən

**CAVAB**

Sərvərim, rəhbərim, istəkli dilbərim
Oxlanıb su məşgim, kəsilib əllərim
Aparma məni, balalar gözlər
Nazlı qızların, özün öldürər
Əbbas, Əbbas
Oğulsuzam mən, qardaşsızam mən

***

Ey şəhi-din hamiye-Quran Hüseyn
Qardaşuvi yıxdılar atdan Hüseyn
Ey şəhi-aləmeyn, dadə gəl ya Hüseyn
Amandı qardaş, amandı qardaş
Yaralıyam mən, vəfalıyam mən

***

Seyyidi sərləşgəri təthir elə
Nokərivə lütfüvü təcdid elə
Əldə ölən şirivi bir did elə
Ey pənahım mənim, dadixahim mənim
Amandı qardaş, amandı qardaş
Yaralıyam mən, vəfalıyam mən

***

Dövrədə qollar sınıb ey naxuda
Bəhri-qəmə qutəvərəm bərməla
Yerdə üzüm, yolda gözüm gəl şəha
Ey şəhi tacidar, ver mənə iftixar
Amandı qardaş, amandı qardaş
Yaralıyam mən, vəfalıyam mən

## DÜŞDÜ ƏBÜLFƏZLİN ADI DİLLƏRƏ

Düşdü Əbülfəzlin adı dillərə (2)
Şiə fəda ol kəsilən əllərə (2)
Ey Əhli-beytə, səqqa Əbülfəzl
Babül-həvaic, mövla Əbülfəzl

***

Ey adı səqqa özü ətşan ağa
Kani-kərəm mənbəyi-ehsan ağa
Parçalanan başuvə qurban ağa
Dəryayi-fəzlin, məna Əbülfəz

***

Ey atası Heydərə nuri-bəsər
Can ağa eşqindən ürəklər əsər
Dərdi olan adüvə qurban kəsər
Eylə muradın, bərca Əbülfəz

***

Ey geyən eşqilə vəfa caməsin
Haq bəyənən iydəvü-bərnaməsin
Parçaladın düşmən amannaməsin
Etdin Yezidi, rüsva Əbülfəz

***

Qoyma ürəklər qəm odunda yana
Lütf eliyib baxsan Azərbaycana
Məkkədə şiələr boyandı qana
Yorğundu şiə, can ya Əbülfəz

***

Səndən ağa lütfü-əta istərik
Ruhə səfa dərdə dəva istərik
Təzkireyi Kərbübəlan  istərik
Eylə bəratın imza Əbülfəz

## EY XANİDANİ HEYDƏRİN QƏMXARI ZEYNƏB

Ey xanidani Heydərin qəmxarı Zeynəb (2)
Şamə apar bu pərişan qızları Zeynəb (2)

Gülzarımız oldu xəzan bu Kərbəladə
Sən qur əza qurbanlara viran sərədə
Oxşa Hüseyni, Fatimə oxşarı Zeynəb
***
Səbr eylə səbrin səddini dünyada yıxma
Zəhra anan tək səbridən bir ləhzə çıxma
Hər şəhridə didaruvə gəlləm darıxma
Ey karivani möhnətin saları  Zeynəb
***
Başım gedibdi Xuliyi nadana mehman
Sər nizədə pişvaz elə gəlmə pərişan
Dəysə yaralı başıma daş etmə əfğan
Yarın yaralı görsə xoşdur yarı Zeynəb
***
Baxma yaralı əllərə gəlmə fəğanə
Mən aşiqəm səngi qəmə olam nişanə
Düşsə gözün düşmən evində xeyzəranə
Möhkəm danış bidar elə əğyarı Zeynəb
***
Oldu Ruqənyyəm kərçi düşmən dəstgiri
Dünyaya gəlməz bu qızın bir də nəziri
Şamə kimi ağuşə al qəmli səfiri
Qoyma ola əşki üzarə cari Zeynəb
***
Səy et bunu salim yetir viran səraye
Eylə nəvaziş hər zaman gəlsə nəvayə
Ahı Yezidin qəsrini versin fənayə
Sərkub edər xırda qızın əşrarı Zeynəb
***

Az səinnilə çox səbr edib dərdi balədə
Qəlbim yanıbdı möhnətində fövqəladə
Həsrətlə can versə bu qız viransəradə
Ollam bunun mən əvvəli zəvvarı Zeynəb

## HARA GEDİRSƏN AY BABA

Hara gedirsən ay baba (2), Dalınca ağlıyan gəlir (2)
Başında yarə var dayan, Yaravu bağlıyan gəlir
***
Dedi qızım niyə məni, Belə qaçıb qabaqladın
Müsafirəm gözəl balam, Məni yol üstə saxladın
***
Evim yıxıldı vay ana, Batıbdır əllərim qana
Gəlib dalınca gör necə, Bir əldə qarə məcərin
***
Vəfasız aşiqəm əgər, Sənin qəmindən yanmasam
Gəlincə qətligahidən, Yol üstə mən dayanmasam
***
Ata gedib bala qalıb, Gəlibdi öz xiyaminə
Nə parə məşgə baxmadı, Nə batmadı su qəminə

## QOYUN QILIM NAMAZIMI

Qoyun qılım namazımı (2), Sora kəsin boğazımı (1)
Qonağızam vəfalıyam (2), Yaralıyam, yaralıyam (2)
***
Su yoxdu dəstəmaz alam, Üz üstə səcdədə qalam
Ölüb əzan deyən balam, Cigər yanır əzalıyam
***
Bəla çölün duman tutub, Bu gülşəni xəzan tutub
İki gözümü qan tutub, Görürsüz ibtilalıyam
***

Çü dadü-kinə əkmiyin, Cinayətə tələsmiyin
Başımı teşnə kəsmiyin, Ki başı macəralıyam
***
Məni qoşun nədən vurar, Ərazili zəman vurar
Gələn vurar gedən vurar, Solan gülün misalıyam
***
Çıxıb kamani kinədən, Dəyibdi ox bu sinədən
Əl üzmüşəm Mədinədən, Həmişə Kərbəlalıyam
***
Mən aşiqi şəhadətəm, Əmiri-mülkü-vəhdətəm
Fədayi-rahi-izzətəm, Bir aşiqin cəlalıyam
***
Köməklərim batıb qana, Düşüb hərəsi bir yana
Sızıldaram yana-yana, Ki ney kimi nəvalıyam
***
Gəlib qan ağlıyan bacım, O sinə dağlayan bacım
Gözümü bağlayan bacım, Deyir başı bəlalıyam
***
Kimim qalıb ki yar ola, Dönəmmirəm sağa-sola
Balalarım baxır yola, Ruqəyyədən aralıyam
***
Hüma kimi qəfəsdəyəm, Sorağı dadi-rəsdəyəm
Ki axərin nəfəsdəyəm, Fəna olub bəqalıyam

## HÜSEYN VAY

Ey şiə bu gün söyləyin ətşan, Hüseyn vay
Ləb təşnə olan ümmətə qurban, Hüseyn vay
***
Meydanda qalan bikəsü-biyar, Hüseyn vay
Ətrafın alan ləşgəri əşrar, Hüseyn vay
Hər yanə baxıb görməyən ənsar, Hüseyn vay
Bir ahi çəkib eyləyən əfqan, Hüseyn vay

***

Bir yanda görüb Əkbəri öz qanına qəltan
Bir yanda ələmdari olan xak ilə yeksan
Qasim bədəni lalətək ağuşdə qızıl qan
Bir yanda olan xeyməsi talan, Hüseyn vay

***

Bu Kufəvü-Şam əhli, bu birəhmi sitəmkər
Əldə hərə bir tirü-kaman, nəzəvü-xəncər
Həmlə eləyüb ol şahə ol firqeyi kafər
Atdan yıxılıb mənbəyi iman, Hüseyn vay

***

Xəncər əlinə aldı o dəm Şümr cəfacu
Ta yetdi Hüseynin başının üstə o bədxu
Su istədi, Şümr vermədi bir cür”ə ona su
Əmma ki, deyib, təşnə verən can Hüseyn vay

***

Üz qoydu o dəm, xeymələrə ləşgəri üdvan
Bu hali görüb Ali-Rəsul, oldu hərasan
Zeynəb dedi bimarə: əya, Abidi nalan
Yoxsa ki, olub qanına qəltan, Hüseyn vay?

***

Əl açdı o dəm, qarət üçün ali-şəyatin
Hər nə var idi xeymədə əsbabi-səlatin
Qarət eləyib, bərhəm eliyüb bəzmü-büsatin
Ey şiə deyin xeyməsi talan, Hüseyn vay

***

Bir od vurub afaqidə bu zadeyi Süfyan
Ta məhşər olunca yanacaq aləmi-imkan
Nazim, bu qəmi zikr elə ta var nə qədər can
Vur başa söylə qüslü olan qan, Hüseyn vay

## YARALANDIM BACI ZEYNƏB

Ələ dəsmal alıb ağla, Yaralandım bacı Zeynəb
Özün gəl yaramı bağla, Yaralandım bacı Zeynəb
***
Keçər ahum oxu daşdan, Üzüldüm qohum-qardaşdan
Atam Heydər kimi başdan, Yaralandım bacı Zeynəb
***
Əgər ki sinə dağlarsan, Yaralı görsən ağlarsan
Gəlib sən yaxşı bağlarsan, Yaralandım bacı Zeynəb
***
Peyğəmbərin gülü soldu, Əmmaəməm qan ilə doldu
Mənə ölmək yəqin oldu, Yaralandım bacı Zeynəb
***
Oğul yox səsləyəm dadə, Bu gündə yetsin imdadə
Xəbər tutub gələ dadə, Yaralandım bacı Zeynəb
***
Ölüb ənsar, ələmdarım, Düşüb qaolsuz ələmdarım
Sən ol mənim pənahdarım, Yaralandım bacı Zeynəb
***
Fələk aramımı aldı, Məni dərdə. qəmə saldı
Səkinə atasız qaldı, Yaralandım bacı Zeynəb

## ƏZRƏT ZEYNƏBİN İMAM HÜSEYNƏ XİTABƏN ZƏBAN-HALI

Qurban olum göz yaşuva az ağla qardaş (2)
Nə gəldi bəs qardaşuvə az ağla qardaş (2)
Yoxsa ələmdarın ölüb qaldın köməksiz
Bir çarə qıl öz başuvə az ağla qardaş (2)
***
Yağış kimi gül surətə əşgin olursan
Qan yaş ilə rüxsarivi qanə bulursan
Sərləşgərin harda qalıb yalquz gəlirsən
Nə gəldi bəs qardaşuvə az ağla qardaş

***

Qardaş sənin halında var bir özgə aləm
Elani matəm eyləyir bu qanlı pərçəm
Getmişdin Əbbas ilə sən meydanə bahəm
Nə gəldi bəs qardaşuvə az ağla qardaş

***

Gəldi səsi qardaşuvə özün yetirdin
Söylə görüm qaldı özü ya əl gətirdin
Ya gəlmədi Əbbas özü məşgin gətirdin
Nə gəldi bəs qardaşuvə az ağla qardaş

***

Qardaş qəmini qardaşı öz göz yaşında
De bir görüm qardaşuvin nə var başında
Qalmış nədəndi gözlərin nizə başında
Nə gəldi bəs qardaşuvə az ağla qardaş

***

Qardaş fəraqində deyər söz başı qardaş
Dərdin bəyan et qan olur göz yaşı qardaş
Salmaz belə yalquz yola qardaşı qardaş
Nə gəldi bəs qardaşuvə az ağla qardaş

***

Bir də demə Əbbas adın başlanmasın yas
Bülbül qalar nə halə gör olsa gülü yas
Aləm bilir səndən Hüseyn ayrılmaz Əbbas
Nə gəldi bəs qardaşuvə az ağla qardaş

***

Mən porsişi hal eylərəm nə dillər ilə
Bəs neyləsin Zeynəb bacın bu qəmlər ilə
Getsə hara şahlar gələr sərləşgər ilə
Nə gəldi bəs qardaşuvə az ağla qardaş

***

Dadə çağırsa qardaşın qardaş verər səs
Ver bir xəbər Əbbasidən ey şahi bi kəs

Tək gəlmisən sərləşgərin harda qalıb bəs?
Nə gəldi bəs qardaşuvə az ağla qardaş

***

Təndən əlaqə rəxtini  aləmdə soydun
Doymazdın ondan sən Hüseyn nə oldu doydun?
Ya cismi bəndi-bəndini meydanda qoydun?
Nə gəldi bəs qardaşuvə az ağla qardaş

## DİN EHTİRAMIN SAXLADIN

***Sən ki ey sərdar idin, din ehtiramın saxladın(2)***
***Başın üstündə odur əsrin İmamın saxladın (2)***

Kərbəladə nüsrət etdin dinə başi canilən
Açdı pər şəhbazi tək gül peykərin peykanilən
Verdi qiymət şahi din, canın sənə qurbanilən
Hörmətin var sən ki dinin ehtiramın saxladın

***

Gərçi aləmdə şəhi ətşanə sən qardaş idin
Qəm günündə leyk Hüseyni bi kəsə yoldaş idin
Orduyi islamidə sərbazi hazir baş idin
Verdin əldən əl vəli dinin məramın saxladın

***

Sən o radimərdisən girdin Fəratə teşnələb
İçmədin su nəhridən çıxdın susuz ey ba ədəb
Əbdi saleh isminə oldun cahanda müntəxəb
Çün kəmiyyət nəfsivün əldə licamın saxladın

***

Eylədin ibrazi raz ey aşiqi canbazi din
Əllərin, başın cahanda oldu payəndazi din
Peykərin şəmşirilə doğrandı ey sərbazi din
Məhşərə amma o zülmün intiqamın saxladın

***

Daşdı eşqin camı aldı qəlbivin aramını
Səfheyi cismində oxlar yazdı din əhkamını
Baxmadın sındırdılar zülmilə gülgün camını
Ta şikəstə dildə məhfuz eşqi camın saxladın
***
Şahi din Kərbübəladə qoydu bir bünyadi eşq
Ta rümuzi eşqidən  agah ola əfradi eşq
Məktəbi eşqə müdir etdi səni ustadi eşq
Məktəbi eşqin gözəl nəzmü-nizamın saxladın
***
Ey əmin şiri şəhamət qabili təqdirisən
Ləşgəri əda bilirdi cəngidə çün şirisən
Şahi din əmr eyləmişdi çəkmədin şəmşiri sən
Şahi dinin hörmətü-şəni əzimin saxladın
***
İzni versəydi sənə sultani məzluman əgər
Ləşgəri əşrari eylərdin yəqin zirü-zəbər
Ey adı səqqa özü nokər adıyla müftəxər
Nə gözəl aləmdə sən mövla məqamın saxladın
***
"Əzəmi” yazdı cəhanə eşqin elan eylədi
Başü-cismin, əllərin islamə qurban eylədin
Nəfsivi qurbani nəfsi şahi ətşan eylədin
Həşrə dək öz nəfsivin şəni əzimin saxladın

## QALƏ RƏSULULLAH (S)

Qalə Rəsulullah, nuru eyni:
"Hüseynü-minni ənə min Hüseyni”
Hüseyn can, kərbəla, Hüsen, Hüsen, Hüsen
***
Dər vəsəti kuçə tu ra mizədənd
Kaş be cayi tu məra mizədənd
Hüseyn can, kərbəla, Hüsen, Hüsen, Hüsen

***

Bu Hüseyn kimdi ki aləm hamı divanəsidi
Bu necə şəm”di ki aləm hamı pərvanəsidi
Hüseyn can, kərbəla, Hüsen, Hüsen, Hüsen

***

Oldu əcəb tirə qara Kərbəla
Sibti Rəsul qətlə yetib vaveyla
Hüseyn can, kərbəla, Hüsen, Hüsen, Hüsen

***

Daş götürüb vurmağa ol peykəri
Kufəlilər, Varisi Peyğəmbəri
Hüseyn can, kərbəla, Hüsen, Hüsen, Hüsen

***

Oxladılar tifli Əli Əsğəri
Qanə bələşdi onun gül peykəri
Hüseyn can, kərbəla, Hüsen, Hüsen, Hüsen

***

Şiələrin qara geyib ağlayır
Əkbərə Əsğərə əza saxlayar
Hüseyn can, kərbəla, Hüsen, Hüsen, Hüsen

***

Zeynəb olub didəsi giryan ağa
Öldü Əli Əkbərin ətşan
Hüseyn can, kərbəla, Hüsen, Hüsen, Hüsen

***

Qismət elə qəbrinə zəvvar olaq
Gəlib sənə Hüseyn əzadar olaq
Hüseyn can, kərbəla, Hüsen, Hüsen, Hüsen

## ALLAHA TAPŞIRDIM SƏNİ

***Get Əli Əkbər oğul, Allaha tapşırdım səni(2)***
***Şibhi Peyğəmbər oğul Allaha tapşırdım səni(2)***

***

Çək qılınc Heydər kimi, bir həmlə et bu ləşkərə
Vur bu düşmən səflərin murü-mələx  tək bir-birə

Mümkün olsa bir içim su al Əliyyi Əsğərə
Təşnədir Əsğər oğul, Allaha tapşırdım səni

***

Kərbəla dəştin necə pər şurişü-qovğa dutub
Xeymələrdə indidən ahü-fəğan ərşə çatıb
Bir səni öldürməgə əldə ədu yekca dutub
Nizəvü-xənçər, oğul, Allaha tapşırdım səni

***

Kərbəla dəştində sən bir ahuyi-azadəsən
Tuş olarsan, qorxuram bir cansitan səyyadə sən
Yekkəvü-tənha qalırsan bir nəfər şəhzadə sən
Çoxdu bu ləşkər oğul, Allaha tapşırdım səni

***

Gətdi qurbangahi-eşqə Şahi-məzluman səni
Həqq yolunda ta Xəlilasa  edə qurban səni
Zülm əliylə eyləyərlər qanıva qəltan səni
Şümrü-bədəxtər oğul, Allaha tapşırdım səni

***

Raciya bəzmi-əzadə yüz min ahu zar ilən
Laləgün eylə cəhani dideyi xunbar ilən
Söylə əhli-matəmə bu misrəyi təkrar ilən:
"Get Əli Əkbər oğul, Allaha tapşırdım səni”

## AÇ GÖZÜN QANINA QƏLTANIM OĞUL

Aç gözün qanına qəltanım oğul
Sənə qurban yaralı canım oğul

***

Səni kim qanuva qəltan elədi
Şüğlümi naləvü-əfğan elədi

Gözümün yaşını alqan elədi
Ovc edib göylərə əfqanım oğul
***
Ey olan gül kimi xəndan bala vay!
Ey üzü qan ilə əlvan bala vay!

Sənə canım ola qurban bala vay!
Ey mənim Yusifi Kən”anım oğul
***
Ey qızıl qanına gül tək boyanan
Ey şərəri atəşə qəlbi yanan
Xeymədə indi yolun gözlər anan
Ey olan sərvi-xuramanım oğul
***
Gərçi Şam əhli tutub sağ-solumi
Qoy salım boynuva bir cüt qolumi
Xeymədə gözləyir itrət yoluvi
Necə yanmaz dili suzanım oğul
***
Evimi yıxdı yıxılmağun Əli
Bu qızıl qanə boyanmağun Əli
Çoxdi əxyamidə müştaqun Əli
Gözləyir itrəti nalanım oğul
***
Mənə Səd oğli vurur zəxmi zəban
Verir oğlanların izzətlə nişan
Eylədi dil yarası bağrımı qan
Dil açıb tənəmə üdvanım oğul
***
Ey "Kərimi”, sən Hüseyn nökərisən
Bu müqəddəs qapunun nokərisən
Oxşa bu dillər ilə Əkbəri sən:
"Aç gözün qanına qəltanım oğul”

## GÖRDÜ QOŞUN ŞİBHİ-PEYAMBƏR GƏLİR

***Gördü qoşun şibhi-Peyambər gəlir (2)***
***Rəzmə, ala göz Əli Əkbər gəlir (2)***
***Əlində şəmşir, Hüseynə yavər, (1)***
***Dilində zikri Allahu əkbər (1)***

***

Surəti on dörd gecəlik mahi tək
Qeyzidən əzası əsir kahi tək
Ərşeyi-zin üstə yədullahi tək
Rüb"ülüdür Qabizil-ərvahi tək
Qəsd eliyib yıxmağa Xeybər gəlir

***

Titrədi ləşgər uca təkbirilən
Şirləri heyrandı bu Həq şirinə
Bir hərəkət gər verə şəmşirinə
Salsa otuz min nəfəri girinə
Həmleyi-əvvəldə müzəffər gəlir

***

Başda fərəh bəxşidi əmmaməsi
Qaməti rənası zireh caməsi
Var rəvişində xətər həngaməsi
Çün görünür ayrıdı bərnaməsi
Mərkəb açıb quş kimi şehpər gəlir

***

Görmüş idi kimsənə Peyğəmbəri
Tez ona təşbihi verib Əkbəri
Bir-birinə söylədi bu sözləri
Yusifi Kən"an idi ya da digəri
İbni Rəsulullaha yavər gəlir

***

Olsa Peyəmbər bu gələn şəxs əgər
Zəhmətimiz vay bizə getdi hədər
Ləblərinə versə təkan müxtəsər

Qüdrətilən ərşi yerə endirər
Etməyə şəqqül-qəmər əzhər gəlir
***
Dəhridə yoxdu ona həmta  kişi
Tiğinin əldə belə var ləğzişi
Versə bu cəngahidə bir çərxişi
Bizlərin Allaha qalıbdır işi
Xirməni-küfrə tökər azər gəlir
***
Qaçdı verən tiplərə arastələr
Çıxdı yerindən pozulub dəstələr
Düşdü üz üstə yerə at üstələr
Tapdı şikəst dirhəmə vabəstələr
Buldu öz amalına keyfər gəlir
***
Gördü Ömər Səd bu keyfiyyəti
Tez tanıdı Əkbəri məh təl’’əti
Səslədi əşxasi duni fitrəti
Verdi xəbər ləşgərə fövriyyəti
Bu nə Pəyambərdi nə Heydər gəlir
***
Ey qoşun amadeyi-peykar  olun
Sədd eliyin tez bu cavanın yolun
Bu gələn Əkbərdi tutun sağ-solun
Himmət edin qoymuyun açsın qolun
Açsa qolun dadə mələklər gələr
***
Verdi qulaq əhli qoşun yeksərə
Gördülər həmd etdi Həqqi-Davərə
Söylədi salavat o Peyğəmbərə
Etdi təvəssül babası Heydərə
Başladı söz əvvəl o axır gəlir
***

Etdi bəyan: Xaliqi Mütləq bilin
Yüz neçə min qasidini haq bilin
Cəddimi onlaridən əsbəq bilin
Dinə verib məntiqi rövnəq bilin
Kim ona şənidə bərabər gəlir

## XƏNCƏR VURULDU ƏKBƏRƏ

***Xəncər vuruldu Əkbərə, Allahu Əkbər (2)***
***Qan doldu şəhla gözlərə, Allahu əkbər (2)***
***Allahu əkbər, Allahu əkbər***

Baş parçalandı torpağa Əkbər yıxıldı
Mislinki  mehrabə o gün Heydər yıxıldı
Əsdi dizi şahən-şəhi məhşər yıxıldı
Düşdü vücudi ləngərə, Allahu əkbər
***
Mənadə hali-Əkbərə Taha baş açdı
Gəldi vəliyyi-Xaliqi Yekta baş açdı
Pəhluları sınmış xanım Zəhra baş açdı
Qəm üz verib Peyğəmbərə, Allahu əkbər
***
Quran fədası xeymədə əfğanə gəldi
Birdən "oğul vay” səslədi meydanə gəldi
Etsin məhəbbət no cəvan qurbanə gəldi
Baxdı yaralı peykərə, Allahu əkbər
***
Məzlum atası səslədi Əkbər balam vay
Xətmi-Rəsulə dəhridə bənzər balam vay
Yatma bacın səslər aman ey qardaşım vay
Qızlar əl atdı məcərə Allahu əkbər
***
Meydanidə Əkbər cavan öldü cavanlar
Peyğəmbərə bənzər cavan öldü cavanlar

Dini-həqqə yavər cavan öldü cavanlar
Sədmə yetişdi əllərə, Allahu əkbər

***

Bir aşiq idi baş verib canana xatir
Qanə boyandı sərbəsər Quranə xatir
Canın verib İmamına, Qurana xatir
Gəllik əli boş məhşərə Allahu əkbər

## İMAM HÜSEYN ƏLEYHİSSƏLAMIN OĞLU ƏLİƏKBƏRİN BAŞI ÜSTÜNDƏKİ ZƏBAN-HALI

***Dur ayağa ey sən bu dəştidə (2), Şövq ilə verən imtahan oğul (2)***
***Səslənir gəlib başın üstünə (2), Bu qoca atan, mehriban oğul (2)***

***

Doğruyub səni əhli kin belə, Rahi həqqidə etmərəm gilə
Dur verək barı bircə əl-ələ, Xeyməyə gedək mehriban oğul

***

İndi Zeynəbin bağrı qan olur, Halı əmməvün özgə san olur
Xunidir gözündən rəvan olur, Ney kimi sızıldar cavan oğul

***

Aç gözün əya məzhəri Rəsul  Gözlüyür Səkinə yolun məlul
İndi ağlayır xahərin oğul, Firqətində eylər fəğan oğul

***

Olmadın Əli gərçi kamiyab, Eyliyib vəli, qövmi bi hicab
Zülfün, əllərin qan ilə xəzab ,Şil olaydı yarə vuran oğul

***

Dur gedək bu dəm xeymiyə Əli, İndi Zeynəbin şivən eyləyir
Çox məhəbbəti var sənə vəli, Firqətin olar çox giran  oğul

## YATMA YARALISAN

***Dur ayağa eyləmə xab oğul, Quru yerdə yatma yaralısan***
***Ürəyimdə qalmadı tab oğul, Quru yerdə yatma yaralısan***

***

Sən idin gülü çəməni ədəb, Belə yatmağa nə olub səbəb?
Gözün aç gəlib şahi teşnələb, Quru yerdə yatma yaralısan

***

Yola saldı əhli hərəm məni, Xeyməyə gərək aparam səni
Gözü yolda qoyma Səkinəni, Quru yerdə yatma yaralısan

***

Məni əfvi qıl Şahi teşnələb, Belə yatmağa bu olub səbəb:
Yaralanmışam dura bilmirəm, Dahi xeyməyə gələ bilmirəm

***

Səni gözləyir Əli qardaşın, Dizim üstə qoy mən alım başın
Mən olum fədası bu gözün yaşın, Quru yeyrdə yatma yaralısaln

***

Baba qoyma sən bacım ağlasın, Cigərin fəğan ilə dağlasın
Yaralanmışam dura bilmirəm, Dahi xeyməyə gedə bilmirəm

***

Aparım səni bacın ağlasın, Səni ölməmiş görüb ağlasın
Gözünü bacın özü bağlasın, Quru yerdə yatma yaralısan

***

Quruyub susuzdan oğul dilim, Qırılıb ləşgər, köməyim elim
Mənə rəhm elə bükülüb belim, Quru yerdə yatma yaralısan

***

Gərək ağlasın gözü-Zakirin, Düşə dillərə sözü-Zakirin
Bu sözü deyir özü Zakirin, Quru yerdə yatma yaralısan

## LƏB TEŞNƏ VERİB

***Ləb teşnə verib canın (2) canana Əliəkbər***
***Qurban ola ümmətlər (2) ol canə Əliəkbər***

***

Sən şibhi-Peyəmbərdin, ol şahə çü bənzərdin

Sanki o şücaətdə, həm fatehi-Xeybərdin
Ləb teşnə Hüseyn oğlu, həm də ona yavərdin
Canın ona bəzl etdin, mərdanə Əliəkbər
***
Yoxdu sənə bir həmta, həm kani-şücaətdə
Əbbas əmun tək sən, vardın o məhəbbətdə
Yoxdu sənə misl olsun, bir kimsə məlahətdə
Səndin bu gözəllikdə bir danə Əliəkbər
***
Sən kani-şücaətlən, yetdin səfi-ədayə
Ətrafın alıb əda, əl açdılar dəvayə
Görcək səni şirani, üz qoydular səhrayə
Səflər pozulub düşdü, tufanə Əliəkbər
***
Əmr eylədi Səd oğlu, ol ləşgəri bi arə
Etmişdi neçün Əkbər, bu gün sizi avarə
Lazımdı vurulsun ox, yoxdu dəxi bir çarə
Baxdı hamısı yeksər, fərmanə Əliəkbər
***
Dövrü-bərivi aldı, meydanidə kafirlər
Tənha səni kim gördü, çünki o sitəmgərlər
Tir ilə kaman əldə, həm tiğilə xəncərlər
Cismin boyanıb yeksər, alqanə Əliəkbər
***
Atdan yıxılan dəmdə, səslərdin o mövlanı
Qurbanı qəbul olmuş, görsün o da Minanı
Şahi-şühəda gəzdi, həsrətlə çü meydanı
Ağlar göz ilə baxdı, qurbanə Əliəkbər
***
Aldı dizinə başın, şahənşəhi məzluman
Gördü ki, axır qanin, zülfün tökülüb hər yan
Şəhla gözüvü tutmuş, tufani-bəladən qan
Döndü sinəsi qandan, ümmanə Əliəkbər

***

Nəşin götürüb gəldi, həm itrəti-Zəhrayə
Verdi xəbəri əvvəl, həm Zeynəbi-Kübrayə
Sən eylə xəbər bacı, bu halı o ətfalə
Axmış necə gör zülfü, hər yanə Əliəkbər

***

Bu qəmdə edib nalə, fəryadü-fəğan Zeynəb
Saldı başına qarə, həm qəddi kaman Zeynəb

Ətfalə xəbər verdi, göz yaşi rəvan Zeynəb
Salmışdı səni indi, hicranə Əliəkbər

***

Məddahün edər nalə, ağlar bu müsibətdə
Munisi ola Əkbər, həm ruzi-qiyamətdə
Ta qəbri ola rövşən, bəlkə ola rahətdə
Hüzzarin edər lənət, üdvanə Əliəkbər

## XIRDA QƏBRÜVƏ ZEYNƏBİN QURBAN

***Dur gedək qızım gedir karivan***
***Xırda qəbrüvə Zeynəbin qurban***

***

Deyirdin əmmə gedək vətənə
Mənzilin olub şəhri Mədinə
Bacı bəs hanı mənim güllərim
Qalıbsan məndən kənar ellərdə
Xırda qəbrivə Zeynəbin qurban

***

Mənim bülbülüm düşmüsən dildən
məgər nə olub küsmüsən məndən
Əsir qəribə oxşayan olmaz
Dur gedək qızım gedir karivan
Xırda qəbrivə Zeynəbin qurban

***

Qəribəm qızım ağlayan olmaz
Yetim qəbrini yoxlayan olmaz
Əsir qəbrindən oxşayan olmaz
Dur gedək qızım gedir karivan
Xırda qəbrüvə Zeynəbin qurban

***

Xaraba mənzildə yatmadım balam
Rahat olmadım yatmadım balam
Torpaqlr olub baluşun bala
Dur gedək qızım gedir karivan
Xırda qəbrüvə Zeynəbin qurban

***

Şümrü-bihəya çox vurub səni
Qətil eyləyib incidib səni
Qərib ölməyin yandırıb məni
Dur gedək qzım gedir karivan
Xırda qəbrüvə Zeynəbim qurban

***

Nalə eylərəm ağlaram səni
Yatmaram qızım ağlaram səni
Zakirəm söylərəm ağlaram səni
Dur gedək qızım gedir karivan
Xırda qəbrüvə Zeynəbin qurban

## RUQƏYYƏ NAZLI SURƏTİN, QOYMA DİVARƏ

Ruqəyyə nazlı surətin, qoyma divarə (2)
Bu kərbəla yollarına, baxma avarə (20
Ağlama, Ruqəyyə (2)

***

Həva dolar yağar vəli, sən kimi dolmaz
Çəməndə gül solar vəli, sən kimi solmaz
Cahanda çox yətimə var, sən kimi olmaz
Ağlama, Ruqəyyə (2)

Xərabədən kənara çox, getmə məhparə
Vurur bu Şamın qızları qəlbivə yarə
Çətindi ayrılıq bala, məndə yox çarə
Ağlama, Ruqəyyə (2)

***

Üzarə bir belə qızım, tökmə göz yaşın
Bibin kimi bəlalərə, tuş olub başın
Bu Şamın əhli bilməsin, yoxdu qardaşın
Ağlama, Ruqəyyə (2)

***

Torpaqlar üstə can verir, Zamini ahu (2)
Canın Həqqə qurban verir, Zamini ahu (2)
Yox bir kəs, ağlasın, gözlərim bağlasın (2)

***

Musər-Rizanı etdilər, zülmilə məsmum
Qürbət vilayətdə qalıb, hər nədən məhrum
Çatmır əli bir kimsəyə, can verir məzlum
Yox bir kəs, ağlasın, gözlərin bağlasın

***

Namə yazıb Məsuməyə, çox məlal ilə
Dəvət edib Tusə onu çox cəlal ilə
Məsumə düşdü çöllərə, şuri hal ilə
Yox bir kəs, ağlasın, gözlərin bağlasın

***

Məsumə Qumda can verir, sinədə namə
Öldü Rizanı görmədi, oldu həngamə
Qaldı Cavadı əmməsiz, gün dönüb şamə
Yox bir kəs, ağlasın, gözlərin bağlasın

***

Bir kəştiye bi sahilə,(Zəhərlədilər)
Gülzaridə solmuş gülə bənzərəm əl"an
Küncü-qəfəsdə bülbülə, bənzərəm əl"an
Yox bir kəs, ağlasın, gözlərin bağlasın

***

Zəhr aldı Şahi Tusidən, taqətü-yara
Qəlbi yananda səslənir, vay ana Zəhra
Yetməz səsi bir kimsəyə, can verir tənha
Yox bir kəs, ağlasın, gözlərim bağlasın

***

Gahi dodaqlardan çıxıb, yandıran sözlər
Səslir Cəvadım gəl atan, gəl yolun gözlər
Gahi baharın əbritək, yaş tökür gözlər
Yox bir kəs, ağlasın, gözlərin bağlasın

## VİRANƏDƏ NAZLI BALAM CAN VERDİ DİNCƏLDİ

***Viranədə nazlı balam (2) can verdi dincəldi***
***Bu düxtəri şirin zəban (2) can verdi dincəldi***

***

Bəxti o tiflin ovcidən düşdü sərazirə(Sahilsiz gəmiyə)
Yeksər ata-qardaşların, çəkdilər şəmşirə
Kərbübəladən Şaməcən, bağlandı zəncirə
Yatmaq ona oldu haram, can verdi dincəldi

***

Qaldı orada bikəfən, Allah balam öldü
Bir kimsənə yox dəfn edə, Allah balam öldü
Asudə oldu zülmüdən, Allah balam öldü
Hər zəhmətə etdi davam, Allah balam öldü

***

Hər bir gecə Əkbər boyun, oxşardı yatmazdı
Şimri görən gün ol gecə, qorxardı yatmazdı
Çox yalvarardım yat qızım, ağlardı yatmazdı

***

Qüslün verən yoxdu nədən, öldü balam öldü
Öz məcərində dəfn edin, öldü balam öldü
Sönməz odun yandım dedin öldü balam öldü

## AXŞAM OLDU NƏNƏ

***Axşam oldu nənə, (2) qurban ollam sənə***
***Sən də yaralı, mən də yaralı (2)***

İndi səs ver mənə, (2) başlayaq şivənə
Sən də əzalı, mən də əzalı.

***

Qapıları bağlayaq, sinəmiz dağlayaq
Səs qoşub ağlayaq
Ay çıxdı göydə, söndür çırağı
Xəlvət edək bu qəmli otağı

***

Hər gün axşam olur qəlbimə qəm dolur
Gün tək rəngin solur
Gündə atamı, qəlbimə sallam
Məsciddən çıxıb, qapıda qallam

***

Hər gün aldım xəbər, dedin axşam gələr
Axşam oldu səhər
Hey qaş ağardı, şəfəq saraldı
Babam gəlmədi, gözüm saraldı

***

Qəlbimi qəm alır, qəm-qəm üstən yağır
Gözlərim əşg gəlir
Yol gözləməkdən, düşdüm ayaqdan
Hamı yətimi, tanır uzaqdan

***

**Anasının cavabı:**
Gəl düşək çöllərə, üz tutaq göylərə
Tapşıraq ellərə
Atan gedəndən, getmiş qonaqlar
Sinəmi dağlar, bağlı otaqlar

***

Ey qəmər təl"ətim, dürrü-por qiymətim
Boynu çiynində, səbr evim yıxma
İzzətim, şövkətim, qəlbidə həsrətim
Allah kərimdi, oğlum darıxma

***

Ey mənim naz gülüm, sevgili yaz gülüm
Dərdivi yaz gülüm
Tapşır ərizən, badi səbayə
Əbbas atandan, eylə gilayə

***

Gül əkdim bal dərəm, qəlbim etdi vərəm
Vay mənə neylərəm
Sən hər güləndə, dərdim azalır
Baba deyəndə, rəngin saralır

***

Sinəmi dağlama, çarəmi bağlama
Oxşayıb ağlama
Canım bu şirin, sözlərə qurban
Əbbasa bənzər, gözlərə qurban

***

Qoy silim gözlərin, bir öpüm ləblərin
Salmışam bəstərin
Süzdü gözlərin, birdən axıldı
Yat dincəl oğlum, sübhə yaxındır

***

Gözlərin gözəldi, ləblərin əsəldi
Səndə xoş məsəldi
Bu sərvi qamət, bu mahi mənzər
Başdan ayağa, Əbbasə bənzər

***

Dörd gül əkdim dərdim, qalmıyıb bir dərdim
Dörd oğul becərdim

Dörd güldən əlan, bir qönçə qaldı
Düşmən kam aldı, bağban qocaldı

## KƏRBƏLA

Adın dillər əzbəridir, Kərbəla!
Ürəklər olub qan,Kərbəla!
Torpağın kimya, Kərbəla!
Kərbəla, Kərbəla, Kərbəla!

Qəmlisən, bir adın neynəva,
Sənə çoxlar deyir Kərbəla,
Türbətin olub xaki-şəfa,
Fəxr eylə hər zaman, Kərbəla!

Səndə gülzari-taha soldu,
Əşki-həsrətlə gözlər doldu,
Su dönüb başdan başa qan oldu,
Yandı cavan və qoca, Kərbəla!

Yandırar möhnətin dünyanı,
Ağladar hər zaman Zəhranı,
Dərbədər eylədin əhli hərəmi,
Oldu bi xaniman, Kərbəla!

Tuşəyi-qəm əşcəi-nas oldu,
Namurad qolsuz Əbbas oldu,
Təşnə ləb verdi can Kərbəla!

Səndə Əsğər nə kamə çatdı,
Nə dil açdı nə bir boy atdı,
Su yerinə içib qan,yatdı,
Qundağı oldu qan, Kərbəla!

Zülmü-əşrarə bu söz bəsdi,
Gör Hüseyn başını kim kəsdi,
Əl aman əl aman, Kərbəla!

Səndə Zeynəb töküb göz yaşın,
Qüssəvü-qəm ağartdı başın,
Tapdı qudalidə qardaşın,
Etdi ahü-fəğan, Kərbəla!

Səndə çox-çox dürrülər yandı,
Xeymələr zülmülə odlandı,
Zeynəbin qolları bağlandı,
Məhşər oldu əyan, Kərbəla!

## PEYĞƏMBƏR VƏFATINDA

Gəl yanıma cəddin sənə qurban, Hüseynim,
Quran oxu ta can verim asan,Hüseynim,
Sənə qurban, Hüseynim!

Gəl qolların sal boynuma, ey mehribanım,
Qoy sinəm üstə başın, ey arami-canım,
Sən ağlasan inciyər mənim ruhi-rəvanım,
Məndən sonra çox eyləmə əfğan, Hüseynim.
Sənə qurban Hüseynim!

Sən qəlbimin aramısan, getmə kənarə,
Əyləş yanımda, munis ol bu biqərarə,
Qoy eyləyim ruxsarına hərdəm nəzarə,
Sənsən yaralı qəlbimə dərman, Hüseynim.
Sənə qurban Hüseynim!

Sən ağlama,ağlar sənə dünya,Hüseynim,
Başın kəsəndə təşnə ləb əda, Hüseynim,
Sən ağlasan ağlar anan Zəhra, Hüseynim,
Mən ağlaram ağlar şəhi-mərdan, Hüseynim.
Sənə qurban Hüseynim!

Gəl sal özün bir sinəmə, ey mahi-parə,
Mən də sənin gül-cismini alam kənarə,
Sən can verəndə mən də gəlləm ahü-zarə,
Nəşin olanda qanına qəltan, Hüseynim.
Sənə qurban Hüseynim!

Məndən sonra ümmət salar başın bəlayə,
Başın vurallar zülmilə nuki-cidayə,
Zeynəb fərağında gələr şurü-nəvarə
Qamçı vurarlar başına hər an, Hüseynim.
Sənə qurban Hüseynim!

Atdan düşəndə torpağa gəlləm harayə,
Zəhra salar gül cisminə zülf ilə sayə,
Zeynəb xeymədə yalvarar əhli-cəfayə,
Leşkər edər əxyamini talan, Hüseynim.
Sənə qurban Hüseynim!

Fəryad o gündən gördülər biçarə Zeynəb,
Şümr ilə məqtəldə gəlib güftarə Zeynəb,
Gah yalvarır Şümrə, gahi əşrarə Zeynəb,
Hər dəm deyir Zeynəb sənə qurban, Hüseynim.
Sənə qurban Hüseynim!

Qardaş bu ləşkər Zeynəbi aldı arayə,
Əldə qara əcz eylirəm əhli-cəfayə,
Ağlar Kərimi ruzi-şəb bu macərayə,
İstər qapından dərdinə dərman,Hüseynim.
Sənə qurban Hüseynim!

## GƏL HÜSEYNİM GƏL

***Atdan yıxıldım torpağa gəl Hüseynim gəl,(2)***
***Torpağa üz qoydum əxa, gəl Hüseynim gəl,(2)***

Səqqayi-ətşanam - qanıma qəltanam.
Qaldı susuzlar teşnələb xeymədə,qardaş, [2]

Cam əldə qızlar teşnələb xeymədə, qardaş,[2]
Əsğər çalıxlar teşnələb xeymədə, qardaş, [2]
Qəmxanə oldu Neynəva gəl Hüseynim gəl.[2]

Səqqayi-ətşanəm - qanimə qəltanam.
Müşkün düşübdü bir yana nəhr Əlqəmədə,[2]
Pərçəm batıbdı al qana nəhr Əlqəmədə,[2]
Qollar düşübdü torpağa nəhr Əlqəmədə,[2]
Can eylərəm dinə fəda, gəl Hüseynim, gəl,[2]

## SƏQQAYİ-ƏTŞANAM - QANIMA QƏLTANAM

Rütbeyi-vala verib Əbbas, həqq yekta sənə,
Bəsdi bu şənidə oğlum səsləyib Zəhra sənə,
Ənbiya həsrət çəkibdir bir Hüseyn tək qardaşa,
Verməyib heç bir kəsə Allah verib tənha sənə,
Səqqayi-ətşanam - qanıma qəltanam.

Əzizi-Fatiməyə sahibi-ləvasan, Əbəlfəzl,
Əbul-əimmə kimi məzhəri vəfasan, Əbəlfəzl,
Üzün qoyan qapına mətləbin alar səndən,
Deyər məqamına qurban düyün güşasən Əbəlfəzl,
Səqqayi-ətşanam - qanıma qəltanam.

Bağban ölsə gül dərəndə kim ağlar,
Bülbül getsə bu çəməndə kim ağlar,
Sən öləndə mən ağladım, Əbəlfəzl,

Başım üstə mən öləndə kim ağlar?
Səqqayi-ətşanam - qanıma qəltanam.

## QANINA QALTAN OLAN

Qanına qaltan olan oğlum Hüseyn,
Ümmətə qurban olan oğlum Hüseyn.

Kim səni qərq etdi qızıl qanına,
Nizə dəyib sinə suzanına,
Fatimə qurban yaralı canına,
Ləbləri ətşan olan oğlum, Hüseyn.

Bir həm olub getdi əsasın sənin,
Olmadı bir kəs tuta yasın sənin,
Bəs hanı əynində libasın sənin,
Sinəsi suzən olan oğlum, Hüseyn.

Təşnə ləb öldürüblər qardaşı,
Firqəti qan eylədi göz yaşını,
Kim dalından kəsdi susuz başını,
Xanəsi viran olan oğlum, Hüseyn.

Bəsləmişdim səni sinəmdə mən,
Gül bədənli qaldın xak üstə sən,
Yox sənə bir qəbir qazan, dəfn edən,
Peykəri üryan olan oğlum Hüseyn.

Sən necə səbr etdin oğul, qətllərə,
Firqəti Əbbasa, Əli Əkbərə,
Oxlara nişan Əli Əsğərə,
Bağrı qızıl qan olan oğlum, Hüseyn.

Sənki İmam idin axır ümmətə,
Nuri hidayət bu yaman millətə,

Saldılar axır səni min zillətə,
Xak ilə yeksan olan oğlum, Hüseyn.

## SƏNSİZ

Əli, bir bax anan Leylaya sənsiz,
Düşübdür Qeys tək səhraya sənsiz.

Gəl, ay gül kəkili zülfi münəvvər,
Boyun qurbanı olsun nazlı xahər,
Bəlalı başım axır ay bəradər,
Düşübdür gör necə sevdaya sənsiz.

Bu karizaridən solmuş bu gülşən,
Görəndə xalını gülşəndə süsən,
Fəna dünyada bir kam almadın sən,
Gələ lə'nət belə dünyaya sənsiz.

Gəzərsən əgər sən baği Cənanda,
Qalıb bacın zəlil hansı məkanda,
Gözüm kor olsun ay qardaş, cahanda,
Nəzər etsəm əgər Minaya sənsiz.

Şəhid etdi babanı Şimri bi din,
Əsir eylər bizi bu ləşkəri kin,
Qalıb düşmən əlində Ali Yasin,
Baxan yox itrəti «Taha»ya sənsiz.

Görüm viran ola bu Kərbəlanı,
Əlimdən aldı sən tək növcavanı,
Bəlaya saldı mən bəxti qaranı,
Gedim yalqız necə Bəthaya sənsiz.

Duşaxə eyləyib boynu cərahət,
Mən üçün yoxdur bir ləhzə rahət,
Əli, qardaş, yoxumdu istirahət,
Əsir olduq bu gün ədaya sənsiz.

## QALAN CƏNAZƏSİ ÜRYAN

Qalan cənazəsi üryan əmoğlu,
O qanlı başına qurban əmoğlu.

Pərişan sünbülüm gül kəkilimsən,
Sənə mən ağlaram sən öz gülümsən,
Əgər ki, sən gülümsən, bülbülümsən,
Olubdur göz yaşım ümman əmoğlu.

Durubdu laxta-laxta qan gözündə,
Yanarsan halıma görsən özündə
Qalıb ağlar gözüm qanlı üzündə,
Veribsən haqq yolunda can əmoğlu.

Qərib, bi kəsi, bi əqrabayam,
Əsirət dər eşqə mübtəlayam,
Buyur incitməsin məni binəvayam,
Özüm nalən gözüm giryan əmoğlu.

Əgər əsir olsa bir gül xar içində,
Utanmaz yar olan əğyar içində,
Səni mən ağlaram bazar içində,
Gedəndə Şama sərgərdan əmoğlu.

Daimə gah gedib, gah durarlar,
Gecə-gündüz apararlar, yorarlar,
Əmoğlu, vay desəm qamçı vurarlar,
Gərək aşiq olan nalən əmoğlu,
Sənə qurban əmoğlu, hənası qan əmoğlu.

## ƏZİZİ FATİMƏ

Əzizi Fatimə ətşan Hüseyn vay,
Olan öz qanına qəltan Hüseyn vay,
Hüseynim vay, Hüseynim vay, Hüseynim vay,
Olan öz qanına qəltan Hüseynim vay.

Qalan nəşi kəfənsiz Kərbəlada,
Kəsik başı gedən Şama cidada,
Töküb göz yaşını Zeynəb nəvada,
Qəribi bi kəsi dövran Hüseyn vay.

Olan biganə qom əqrabadan,
Görən zillət o Şimri bihəyadan,
Göyərmiş ləbləri çubi cəfadan,
Üzü qandan olan əlvan Hüseyn vay.

Pozulmuş rövnəqi, getmiş əsası,
Soyulmuş peykəri parə libası,
Olan xavər Əhli-Beyt içrə əzası,
Dağılmış şövkəti sultan Hüseyn vay.

Gedən talana kulli mülki məlalı,
Olan tarac o zi cəlalı,
Görən zülmi cəfa əhli əyalı,
Şikəstə könlümə dərman Hüseyn vay.

Tutubdu aləmi bəzmi əzası,
Bədəndən soyublar qanlı libası,
Səkinənin çıxar ərşə sədası,
Olan xeymələri talan Hüseyn vay.

Düşən qolsuz Fərat üstə ələmdar,
Hanı Əbbas tək qardaş vəfadar,
Hami səqa, ələmdar oldu sərdar,
Ola əmvali həm suzən Hüseyn vay.

Yetir özün (Asəf) bizim əzaya,
Yetişsin nalən ol ərşi Xudaya,
Keçib qanlı başın noki[1] cidaya,
Gəlir bəzm əzadan vay Hüseyn vay.

**HÜSEYN SƏNİN HALINA O GÜN**

Hüseyn sənin halına o gün,
Qətlinə duran ləşgər ağladı,
Bilmirəm nə hal üz verib sənə,
Səf çəkib hamı kafir ağladı.

Yerlər ağladı, göylər ağladı,
Şimri əlindəki xəncər ağladı,
Açdı Fatimə məcər ağladı,
Bu müsibətə Heydər ağladı.

Gətdin Əsğəri oldun rubə-ru,
Xaiş eylədin vermədilər su,
Hulqu Əsğərin oxladı ədu,
Saqi hovzi Kovsər ağladı.

Gördü hərmələ bu hekayətin,
Vardı sudan sənin çox şikayətin,
Baxdı qeyz ilə gördü halətin,
Halını görən kafir ağladı.

Aldı nisari qəm etdi həl-hələ,
Düşdü aləmə şuri vəl-vələ,
Vurdu qeyz ilə çünki hərmələ,
Əhli asiman yek sər ağladı.

---

[1] *Noki – cidanın ucunda.*

Görməyib görməz kimsənə əyan,
Belə zülm edib qomi kufiyan,
Qıldı su yolun hərmələ nişan,
Ox dəyib Əliəsğər ağladı.

Yıxdılar onu zülcanahidən,
Gəldi va Hüseyn mehrimahidən,
Nəhr edəndə qan qətligahidən,
Başına vurub Peyğəmbər ağladı.

Olmadı kömək eyləyən ona,
Dəfn edib onu gəldi meydana,
Vurdular yerə baxdı hər yana,
Şeşmahi qəm pərvər ağladı.

Düşdü aləmə şuri ğulğulə,
Yerlər eylədi cümlə zəlzələ,
Aldı Şimri dun xəncərin ələ,
Aşikar o gün xəncər ağladı.

Öldü padişah dağıldı əsas,
Kimsə tutmadı o qəribə yas,
Soydular onu firqei şənnas[1],
Nəşini soyan kafir ağladı.

İtrəti Rəsul oldu vajequn,
Çox ona cəfa qıldı Şimri dun,
Vurdular başın nizəyə onun,
Çün onu görüb göylər ağladı.

Əhli aşiqə çün belədir qanun,
Hər bəla gəlib eylədi səkun,

---

[1] *Şənnas – əxlaqsızlar.*

Cəminə yoxdur qüsl ilə mədfun1,
Bu müsibətə Heydər ağladı.

Bu müsibəti eyləsəm bəyan,
Qorxuram yana cümlə insi can,
Qətligaha çün gəldi sariban,
Doğrudan haqqı vadər ağladı.

Nəşi üstə gəldi madəri,
Yoldu başını açdı məcəri,
Gördü baş gedib yoxdu əlləri,
Sariban kəsən əllər ağladı.

Nizəban olub bir dini şərir2,
Oldu min möhnət orada zühur3,
Xabigah4 ona oldu çün tənur5,
Aşikar ona yerlər ağladı.

## FƏRAĞINDAN ƏLİ MƏN CANA GƏLLƏM

***Fərağından Əli mən cana gəlləm,***
***Töküb yaş üzümə əfğana gəlləm.***

Çürütdü ömrümü bu xaneyi viran,
Hamu halım olub məxluqa əyan,
Rəvadır madərin eyləsin əfğan,
Yəqin et ay Əli, hər yana gəlləm.

Pozulmuş, həm yaman olmuş halım,
Dağılmazmı məgər qəlbi məlalım1,

---

[1] *Mədfun – dəfn etmə.*
[2] *Şərir – mərdimazar.*
[3] *Zühur – aşkar oldu.*
[4] *Xabigah – yatmaq yeri.*
[5] *Tənur – təndir.*

Görüb əbrə mənim əhmər həlalım,
Qəmindən Vallahi tuğyana gəlləm.

Bu qomi əşqiyədə yox mürüvvət,
Edər covri-cəfa qoymazlar rahət,
Puç olsun belə insafsız millət,
Cəfae Şimridən üsyana gəlləm.

Ola qurban sənə biçarə Leyla,
Boşalmayıbdır ürəyindən dərdi hələ,
Dağılmış izzəti şokəti vali,
Bu dərdi qüssədən nalana gəlləm.

Pənahım yox Əli imdad edən yox,
Bu viranə qalmışı abad edən yox,
Nə dağlı ürəyimi bir şad edən yox,
Nəhayət Əkbərim suzənə gəlləm.

Olub xəti-xalın zülmilə paymal,
Odur ki, qalmamış məndə də daha hal,
Dönüb ədbar olub Vallahi iqbal,
Düşəndə yadıma giryana gəlləm.

Necə etsin bu dərdə madərin tab,
Yaxıb dərdin məni eylədi kəbab,
Yox olsun beləcə zülm edən ərbab,
Bu covri zülmidən bir yana gəlləm.

Qəribin ağla ay (biçarə) yazıq,
Bu sözlərdə yəqin Leyladı sadiq,
Olubsan mələk motdanda2 fariq,
Bu dərdi qüssədən covlana gəlləm.

---

[1] *Məlalım – usanma, sıxılma, təngə gəlmə, qəm.*
[2] *Mələk mot – yəni Əzraildən uzaqsan oda yaxın gəlmir deməkdir.*

## YARALI ƏKBƏRİM

***Yaralı Əkbərim atam oğlusan,***
***Atam oğlu ay yaralı oyan,***
***Dur ayağa ay yaralı oyan.***

Sən ilə doyunca bir ağlaşaq,
Gedirəm boynumuza qol salaq,
Anam oğlu dur, bircə qucaqlaşaq,
Bu axır vidadı vidalaşaq.
Necə pai piyada ayaqlaşaq,
Bu xəyal eylər məni bağrı qan,
Atam oğlu, ay yaralı oyan.

Boyanıb qaraya hərmələrin,
Boyaram zülfimi qanın ilən,
Belə qanlı zülfilə Şama tək,
Gedərəm bu qədd kaman1 ilən,
Nə rəva üdvan məni məhzuni,
Görələr bu ah və fəğan ilə,
Olacaq kimlər bizə pasiban2,
Atam oğlu, ay yaralı oyan.

Mənə mane olmasa Şimri dun,
Sənə qüsl edərəm əşk ilə,
Ki, tamam zəxmdi peykərin3,
Yuyaram gülabı sər əşg4 ilən,
Ürəyim üstə basaram nəşin,
Öpərəm ləbin ləbxəşg ilə,
Mənə Şimri verməyəcək aman,
Atam oğlu, ay yaralı oyan.

---

[1] *Qədd kaman – bükülmüş belim ilən.*
[2] *Pasiban – gözətçi.*
[3] *Zəxmi peykərin – bədənin tam yaradır.*
[4] *Sər əşg – göz yaşım ilə.*

Mən eşitmişəm ki, mükərrəra[1],
Bu başın Hüseyn ruhi şamada,
Gələcəkdir naləyə itrətin,
Yetişəndə məclisi əmada,
Yetəcək nələr mən cəmkeşə,
Axı ya əxa o məqamda,
Mənə Şimri verməyəcək aman,
Atam oğlu, ay yaralı oyan.

Bu gecə anan yanına gəlib,
Tökəcək sər əşk edəcək fəğan,
Görəcək anan kəsib əllərin,
Nə cəfavu zülmilə sariban,
Gələ tənurda gül üstə,
Ola bu gecə sənə mehman,
Ona ərz halın qıl bəyan,
Atam oğlu, ay yaralı oyan.

## ƏLİ ƏKBƏRİM GÖZ AÇ BALAM

Əli Əkbərim, gözün aç balam,
Qumlar üstə yatma, yaralısan,
Gərək Əkbərim qanını alam,
Qumun üstə yatma, yaralısan.

Anan öldürər özünü Əli,
Mənə tapşırıb sözünü Əli,
Öpəsən gərək gözünü Əli,
Qumun üstə yatma, yaralısan.

Qumun üstü çox xoş olur baba,
Belə yatmağım nuş olur baba,

---

[1] *Mükərrəra – dəfələrlə, təkrarən.*

Aparım gərək səni xeyməyə,
Anan oxşayıb bala vay deyə,
Bacın ağlayıb qaranı geyə,
Qumun üstə yatma, yaralısan.

Baba, olmadı su Səkinəyə,
Gedə bilmərəm daha xeyməyə,
Yola sal anamı Mədinəyə,
Qumun üstü çox xoş olur baba,
Anama demə düşüb Əkbərin,
Qumun üstə ol şahi xavərin,
Demə can verir mahi ənvərin,
Qumun üstü çox xoş olur, baba.

Qırılıb mənim köməyim balam,
Çətin əmrdir daha sağ qalam,
Qanını gərək mən özüm alam,
Quru yerdə yatma, yaralısan.

## SÖYLƏ HÜSEYNƏ EY SƏBA

Söylə Hüseynə ey Səba, Kərbəlaya gəlməsin,
Gəlsə düşər bu dəştidə dərdi bəlaya gəlməsin.

Söyləginən gətirməsin Kufiyə nazlı Əkbəri,
Zülmilə qanına batar tarei mişki ənbəri,
Bəlkə firəngə tək apar cümleyi Ali Heydəri,
Zibhi əzim1 üçün bu gün kuhi Minaya gəlməsin.

Söylə, gətirmə Qasimi qatili eyləyir şitab2,
Toyda olur yəqin onun qan ilə əlləri xizab,
Görmə rəva ki, Şimri dun din evin eyliyə xərab,

---

[1] *Zibhi əzim – Qurbanlıq, qurban kəsmək üçün.*
[2] *Şitab – çox tələsiyir.*

Rəhm eləsin o Zeynəbi bəxti qaraya gəlməsin.
Gəlməyə yoxdu fürsətim qan ilə namə yazmışam,
Öldürəcəkdi müslimi Kufədə firqeyi zalım,
Qardaşının uzun qolu görmə rəva ola qələm,
Bacıları ayaqyalın dəşti bəlaya gəlməsin.

Yetsə xəbər əgər sənə öldü bu müslimi əqil,
İbni Ziyad nəşini gərçi edibdi çox zəlil,
Elə cinaət olmadı oldu qənarədə qətil,
İstəmirəm ailəni qoyma əzaya gəlməsin.

Axır xəzan əsər sənin qönçə sifət ailənə,
Rəhm eylə yavərim Hüseyn Qasimin xoş məqalinə,
Canı məsədduq eylədim Əkbərinin cəmalinə,
Sağ ola İmam Hüseyn qəmi əsraya gəlməsin.

Söylə əmoğluma mən beykəsi eyləsin halal,
Ərzimi bir-bir eylə Ali əbaya şərhi hal,
İki açılmamış gülüm Kufədə zari dil məlal,
Qaldılar Əkbər ilə ol Qasim həraya gəlməsin.

Həsrətəm ol cəmalinə ah çəkirəm bu sinədən,
Kufədə vardı qatilin gəlmə həzin Mədinədən,
Qoyma yetim Xədicəni ayrı ola Səkinədən,
Başına əl çək ağlayıb şuri nəvaya gəlməsin.

Söylə onun anasına başına qara bağlasın,
İki baladan ayrılıb kuhi məkanı dağlasın,
Tutsa əza Xədicədən söylə ki, gizlin ağlasın,
Bəlkə yetimliyin tozu mahi ləqaya gəlməsin.

Fatimənin kənizi bu qısanı eyləyim tamam,
Bir-birə dəydi mərdozən şura gəlibdi xasi aləm,

Nohə edər bu (Natəvan) ruzoşəb ağlayar mudəm,
Tapmasa bir dəre nəcat dari bəqaya gəlməsin.

## ŞAMA LEYLANI ÇƏKƏN

Şama Leylanı çəkən əşqi Əli Əkbər idi,
Necə Əkbər deyəsən surəti Peyğəmbər idi.

Ola bilməzdi yəqin Həcər ilə İsmayıl,
Hüsnündə Əkbərə həm əşqida Leylaya ədil,
Billah olmaz belə madər həm hüsni cəmal,
Necə Əkbərdi o Əkbər bu necə madər idi.

Hüsni təkmildi hərçənd bəni Haşimidə,
Çoxdu məgər taləti dilbənd bəni Haşimidə?
Yox idi Əkbərə minad bəni Haşimidə,
Ki, şücaətdə Əli, hüsnidə Peyğəmbər idi.

Bu hamı tələt hüsn ilə ki, təqrir oldu,
Təşnə ləb gül bədəni tameyi şəmşir oldu,
Təşta kəkili qan şətana zəncir oldu,
Necə kəkili onun telləri müşk tər idi.

Oldu çün zərbət ilə min şəq o mahi mədini,
Peykəri saldılar atdan yerə ol qomi dini,
İsti qumlar üstə saldılar o gül bədəni,
Ki, ona sineyi Leyli neçə il bəstər imiş.

Kaş edəydi bu hamı dost cəhənnəmdə məqam,
Olmaydı sər zülfün belə əşfətə nəfam,
Allah-Allah bu necə silsilə qafiyə fam,
Ki, onun ətri reyhei müşk ənbər idi.

Qoymadı fəraöət Əkbəri dil Leylada qərar,
Cəzb əşq çətib qətlgaha eylədi güzar,
Tapdı bir halət ilə Əkbərin ol beykəsi zar,
Ki, sərasər bədəni zəxmidən1 xəncər idi.

Gördü əsrar atəşi var ləb xamuşunda,
O oğul başı kəsildi ana ağuşunda,
Quruyub tar-təli zülfi bəna guşunda,
Axır o başı kəsən necə kafir imiş.

Xak-xun içrə o gül bədəni bey sər qoydu,
Həşrə tək Leylanı xətri mükəddər qoydu,
Hansı kafir o gözəl həncərə xəncər qoydu,
Ay Xuda bu necə həncər o necə xəncər imiş.

Rahi əmtada yetib qətlə bəs təzə cavan,
Ki, qoyub həsrəti bu dostların bağrına qan,
Bu şəhidin cavan canına canım qurban,
Ki, onun taləti Peyğəmbərə çox bənzər imiş.

Ola (ləli) bu əzan aləmin gərcə qəbul,
Pərsəş ruzi cəzadan bu qədər olma məlul,
Çəngə vurub sidqilə tut daməni övladı Rəsul,
Səf məcrmlərə əlbəttə şafei göstər imiş.

## BARİ İLAHİ

Bari İlahi bu namaz namazımdır mənim,
Bu boğazımdan axan qan dəstəmazımdır mənim.

Çünki etmişəm səninlə əhdi mən ruzi əzəl,
Çün verəm cani bu çöldə ay Xudai ləmyəzəl,

[1] *Zəxmidən – xəncər yarası idi.*

Etdiyim əhdə bu gündə eylərəm ya rəbb əməl,
Bu quru ləblər, bu xəncər, bu boğazımdır mənim.

Yandırıb xəşktəri bu məndəki suzatəşi,
Var əzəldən əşq meydanında belə keşməkeşi,
Aşiqə xoşdur axa qanı, edə qan içrə qəşşi,
Cələvu kah əşqidə bu bir niyazımdır mənim.

İçdiyim cəm bəla səhbasının səri məstəm,
Əşq bəzmində məhəbbət nazının pai bəstim,
Məqsədim sənsən naəhli Kufənin pai bəstim,
Şövq vüsalından quru yer ceynamazımdır mənim.

Nizə başına da kəsik başımla merac eylərəm,
Yaralanmış başıma qan laxtasın tac eylərəm,
Min xədəngə sinəmi bir dəfə amac eylərəm,
Çünki, xulinin tənuri bəzmi razımdır mənim.

Cismimə vursun gərək ol qədər yara bu sipah,
Abi zəmzəm təki axa qanım dola bu qətligah,
Əşq məqtulinə olmaz bundan artıq xabgah,
Məhzərində çün bu yatmaq xabi nazımdır mənim.

Çün qəmlə gəlmişəm ruzi əzəl əyyama mən,
Qəm sərşikin tökmüşəm Kərbəlada cama mən,
Nizə başında Xuda daxil olanda Şama mən,
Əhli-Beytim küçəvü bazara əzamdır mənim.

Olmuşam musi sifət bir novilə mah cəmal,
Yüz belə zülm etsələr, yetməz mənə əsla məlal,
Atlar dırnağı altında olan gər paimal,
Razıyam, çünki rzai bi niyazımdır mənim.

Ya Hüseyn ta var həyatım ruzi şəb sübhi məsa,
Eylərəm şərhi müsibət, ey şəhidi Kərbəla,
Şahidi vardır bu (Dilrəşin) Ağa ruzi cəza,
Ərzəmdə göz yaşım əldə biyazımdır mənim.

## RƏHMİ QIL, EY ŞİMRİ DUN

Rəhmi qıl, ay Şimri dun, kəsmə Hüseynin başını,
Zəhərlətdiniz bir tərəfdən həm Həsən qardaşını.

Binəvadır çün Hüseyn, öldürdünüz Əkbər oğlunu,
Bir tərəfdən oxladınız mə'sum Əsğər oğlunu,
Lə'nət olsun sizlərə aldınız o sərvər oğlunu,
Rəhm qıl ey Şimri dun, kəsmə Hüseynin başını,
Doğradınız utanmadınız yetmiş iki yoldaşını.

Getdi Əbbas əlindən rəhm qıl Şimri dəğa,
Eyləmə bu qədər sən dərd aləmə covri cəfa,
Ruzi məhşərdə cəza eylər sənə ol bir Xuda,
Rəhm qıl ey Şimri dun, kəsmə Hüseynin başını,
Görmürsənmi məgər övladının göz yaşını.

Yarası çoxdur Hüseynin eyləmə ona əzab,
O əzab ilə yazıq Zeynəb oldu dil kəbab,
Qalmayıb yara əlindən o Hüseyndə bircə tab,
Rəhmi qıl ay Şimri dun, kəsmə Hüseynin başını,
Ondan ötəri xeymədə gör qan olan göz yaşını.

Xeyli vardır yarası çıxma onun sinəsinə,
Nalə əfğan eyləyən biçarə Səkinəsinə,
Nəzr ilə ağlayan sən əhli Mədinəsinə,
Rəhm qıl ey Şimri dun, kəsmə Hüseynin başını,
Dərdi çoxdu öldürübsiniz qomi qardaşını.

Ağla (biçarə) müdam yazıq Hüseyn biçarədir,
Ol qızıl gül peykəri başdan-başa parədir,
Bax, Səkinə başına gör məcəri də qaradır,
Vird eylə ağzına kəsmə bu Hüseynin başını,
Doğradınız utanmadınız yetmiş iki yoldaşını.

## AY SALAN ÇÖLLƏRƏ LEYLANI

Ay salan çöllərə Leylanı Əli Əkbər oğul,
Bax çıxar ərşədək əfğanı Əli Əkbər oğul.

Hanı ol zülfi qara xalı qara çeşmi qara,
Allah-Allah nədi bu canı yara cismi yara,
Bulaşıb zülfi qana Əkbər hara, yara hara,
Vay-vay ölləm gözü giryan Əli Əkbər oğul,

Sinəsi nalan oğul, çeşmi giryan oğul,
Silməyir qanı oğul, Leyli sultanı oğul.

Düşərəm dərd əlindən bu biyabana oğul,
Çünki batdın  sitəmi zülmilə al qana, oğul,
Ürəyim yaralanıb yara edib şana oğul,
Anayın ğeyibdir cananı Əli Əkbər oğul.

Oldu qurbanı oğul, vətənin hanı oğul,
Verdi həm canı oğul oldu, qurbanı oğul.

Salaram başıma səndən sonra bir şal siyah,
Öldürər Şimri məni dada yet Allah tala,
Bir dəqiqə çəkməz əl bu yaxamdan gümrah,
Düşmən öldürdü müsəlmanı Əli Əkbər oğul.

Ola viran oğul, görüm cahanı oğul,
Bata cahanı oğul çoxdu şeytanı oğul.

Hanı qeyrətli əmin su tapa bir cürə sənə,
Dur ayağa ay oğul, düşmən gedir vətənə,

Sahib olmuş ki, bizi təşnə etdi mahinə,
Puç qaldı bu gülüstanı Əli Əkbər oğul.

Mah tabanı oğul, ana yaranı oğul,
Tutub əfğanı oğul, belə dünyanı oğul.

Əldə tutmuş qələmi nohə yazar (biçarə)
Dərd yarı belə yetmiş onu parə-parə,
Deginən sən həmişə yarə dəyibdir, yarə,
Puç ediblər ədəbstanı Əli Əkbər oğul.

Yox müsəlmanı oğul, qoyma üdvanı oğul,
Öldü mehmanı oğul, dil suzanı oğul.

## AY BATAN LALƏ KİMİ

Ay batan lalə kimi qana, Əli Əkbər oyan,
Dur gedir Şama, anan Leyla qəmpərvər oyan.
Ay Əli Əkbər oyan, şibhi Peyğəmbər oyan,
Əli üstə babanın oxlanıb Əsğər oyan.

Sinəm üstə səni mən bəslədim işbə rəsul,
Nə rəvadır bata al qana o gül peykər oyan,
Ay Əli Əkbər oyan.

Yatma çox naz ilə ay peykəri səd parə oğul,
Qalmış düşmən əlində bu yetim qızlar oyan,
Ay Əli Əkbər oyan.

Vurdular xeymələrə zülm ilə od qomi dəğa,
Dağılıb çöllərə bu itrəti Peyğəmbər oyan,
Ay Əli Əkbər oyan.

Məlun bağladı zəncirə anan qollarını,
Aparır baş açıq Şama o bədəxtər oyan,
Ay Əli Əkbər oyan.

Ali tahanı suvar etdilər üryan dəvəyə,
Dəf çalır gör necə şövq ilə düşmənlər oyan,
Ay Əli Əkbər oyan.

Necə qan ağlamayım mən ki, görüm gül başını,
Gün kimi noki cidaya vura bu ləşkər oyan,
Ay Əli Əkbər oyan.

Aç o şəhla gözünü etməyə nəzarə mənə,
Ağlaram qan, səpərəm başıma mən küllər oyan,
Ay Əli Əkbər oyan.

## ALƏM NİYƏ BƏS OLMADI VIRAN, ƏLİ ƏKBƏR

***Aləm niyə bəs olmadi viran, Əli Əkbər,***
***Ol gün ki, səni saldılar atdan, Əli Əkbər?***

Bu şiələr, ey kaş, cəhənnəmdə yaneydi,
Zülfün nə ki, bircə teli qanə boyaneydi,
Çərxün görum ol gündə bu dövri dolaneydi
Dövri-bərüvi aldılar üdvan, Əli Əkbər.

Bu əqdini bu şiələrün həll edə, müşkil,
Vermüb su, kəsüb təşnə sənün başuvi qatil,
Olsun o sərün su üçün aşiqlərə nisgil,
Verdün sən o zəhmətlə susuz can, Əli Əkbər.

Leyla gecələr sübhə kimi yatmadi rahət,
Sən kimi cəvan bəslədi, ey kani-məlahət,
Axir nə rəvadur qala didaruna həsrət,
Düşmən eliyə qanuva qəltan, Əli Əkbər.

Məşhurdu hərçənd qəmü möhnəti-Yusif,
Kor eylədi Yəqub gözin firqəti-Yusif,
Əmma ona bir vəqtə yetüb həzrəti Yusif,
Kim, olmuş idi Misrdə sultan, Əli Əkbər.

Tapdi səni bir vəqtə o Yəqubi-Mədinə,
Yıxmışdıla rəna qədüvi ruyi-zəminə,
İstərdi kəsə başuvi ol ləşkəri-kinə,
Dutmuşdi sənün gözlərüvi qan, Əli Əkbər.

Gördi ki, kəsər başuvi ol taifeyi-gəbr,
Mümkün degü bir kimsənə bu zülmə edə səbr,
Doldurdi baban gözlərini əşk ilə çün əbr,
Səbr eylədi bir Şahi-şəhidan, Əli Əkbər.

Qurbani görülmüb kəsə bir kimsənə ətşan,
Əmma sənə rəhm etmədi bu ləşkəri-üdvan,
Axir səni meydanda susuz kəsdilə qurban,
Bu canimiz olsun sənə qurban, Əli Əkbər.

Sinən dəmi-şəmşir ilə peykanə verübsən,
Canü dil ilə canuvi cananə verübsən,
Başun bu rahi-eşqdə mərdanə verübsən,
Ey nuri-düçeşmi-Şəhi-mərdan Əli Əkbər.

Ol gün ki, çıxub xeymədən əflakə fəğanlar,
Meydanda töküldi yerə nahəq yerə qanlar,

Hardeydi o gün, mən sənə qurban, bu cavanlar,
Məcmui oleydi sənə qurban, Əli Əkbər.

Bu zəxmi-dil oldı anova zəxmi-cəbinün,
Göylündə qalub həsrəti Leylayi-həzinün,
Səndən sora kül başinə dünyayi-dəninün,
Sənsiz necə dövr etdi bu dövran, Əli Əkbər?

Şümrin görüm aləmdə şədid olsun əzabi,
Aya nolu peyğəmbərə məhşərdə cəvabi?
Ol gün ki, qurar ədl ilə divani-hesabi,
Etsün bu barədə divan, Əli Əkbər.

Çavuş səda çəkdi, çıxub qafiləyi-qəm,
Olmadi bu il Racinün övzai fərahəm,
Qismət ola qəbrimdə deyə növbə dəmadəm,
Hüzzar olallar çaki-giriban, Əli Əkbər.

## GƏLDİ GÜL HƏSRƏTİ

Gəldi gül həsrəti əyyam əmoğlu,
Murada yetməyən damad əmoğlu.
Əmoğlu vay, əmoğlu.

Əcəb mən gəlin oldum,
Əcəb tə'nədə qaldım,
Əmoğlu vay, əmoğlu.

Sənin dərd qəmin çıxmaz bu candan,
Ölüncə doymaram ahı fəğandan,
Həna əllərinə bağladın qandan,
Olubdur toy otağım şam əmoğlu.

Sənin tək kim alıb kam muradın,
Ucaldıb növ ərusun  ahı dadın,
Qoyub getdin mənə bəd qədəm adın,
Sənə qurban ola bu can əmoğlu.

Özün getdin qoyub xunbara məni,
Salıbsan mə'nei əğyara məni,
Çəkillər kuçei bazara məni,
Yetiş imdadıma nakam əmoğlu.

Adım təzə gəlin qolları bağlı,
Aparıblar məni sinəsi dağlı,

Qolum zəncir də yalın ayaqlı,
Qanından məcərim külfam əmoğlu.

Ölüncə eylərəm mən ahı nalə,
Ərusun qaldı həsrət mah cəmalə,
Toy etdin yetmədin bir dəm vüsalə,
Edər nalə ərus har şam əmoğlu.

Yazar (çakir) bu qəmli məcarəni,
Salar yada o qanlı Kərbəlanı,
Həmişə oxşayıb ağlar cavanı,
Deyər bi kəs qalan nakam əmoğlu.

## ƏLİ BİRCƏ AYAQ SAXLA

Əli bircə ayaq saxla balo gərdanınam, qardaş,
Dalınca gələ bilmirəm dur, qurbanınam, qardaş.

Əli hərgəz deməm getmə gedib məqsədinə yetmə,
Mənidə nəümid etmə dayan, qurbanınam, qardaş.

Dözüm sənsiz qərarım yox, əlimdə ixtiyarım yox,
Qəmim çox qəmxarım yox, dayan, qurbanınam, qardaş.

Əcəb saldın məni gözdən dönərmiş axır üz-üzdən,
Mükəddər olma bu sözdən dayan, qurbanınam, qardaş.

Uçar ruhim fərağından çıxar can iştiyağından.
Öpüm bir qoy ayağından dayan, qurbanınam, qardaş.

Bu hicran sinəmi dağlar anan Leyla necə ağlar,
Başa axır qara bağlar dayan, qurbanınam, qardaş.

Bacın bu sərf azadə olubdu qəmdən oftadə,
Əlindən tut yetmiş dadə dayan, qurbanınam, qardaş.

Bu bülbül qaldı gülşənsiz qala müşgüldü şivənsiz,
Qayıtmam xeyməyə sənsiz dayan, qurbanınam, qardaş.

Səni indi yola sallam yol üstə intizar qalam,
Verib can dərdini allam dayan, qurbanınam, qardaş.

## BU GÜN KƏRBƏLA VİRAN OLUBDUR

***Bu gün Kərbəla viran olubdur, Hüseyn öz qanına qəltan olubdur.***

Olubdur aləmə əzhari mətləb, gərək İslam ola huşyari mətləb,
Diyari Kərbəlada ahı Zeynəb tutub yas əza giryan olubdur.

Bu gün oldu Hüseyn dünyada məğmum, edib məqtul onu dünyada məzlum,
Görüb qardaşını biçarə Gülsüm, batıb öz qanına qəltan olubdur.

Aman gəldi Səkinə qətligaha, şikayət eylədi ol yerdə şahə,
Babacan vurdular od xeyməgahə, ailən xeymədə suzən olubdur.

Ərus binəvaya qıldı ta əsir, tutub üz qətligaha zari dilgir,
Özü təzə gəlin boynunda zəncir, görüb ol haləti nalan olubdur.

Gəlibdir ümü Leyla zari müztər, buyurdu hardasan şahzadə Əkbər,
Dayandı təllin üstə didəsi tər, anan dur görginən ətşan olubdur.

Bu matəmdə olur (xaki) əzadar, əzadar olmağa var laiqi var,
Nəsib et qəbrini öpüm diləfkar, həmin dünya özü zindan olubdur.

## DUR AY QUMLAR ÜSTƏ ÜRYAN HÜSEYNİM

***Dur ay qumlar üstündə üryan Hüseynim,***
***Verən həqq yolunda susuz can Hüseynim.***

Nəzər qıl bu halə bu nə məcarədir,
Başın peykərindən Hüseyn can cidadır,
Ali Rəsulə bu çox-çox cəfadır,
Görmək biz səni qanla qəltan Hüseynim.

Bacın Zeynəb ölsün düşübsən nə halə,
Açıb zəxmidən1 sinən üstə lalə,
Yetirdin məhəbbət əsasın kəmalə,
Salıbsan bu dünyaya tufan Hüseynim.

Xərabə qalaydı görüm millik şami,
Salıblar bu hala sən təşnə kami,
Rəvadır susuz öldürürlər İmami?
Məgər yoxdur bircə müsəlman Hüseynim?

Gedər Şama Zeynəb qolunda tənnabi,
Yezidin nə olur ruzi məhşərdə cavabi,
Şədid olsun Allah Yezidin əzabı,
Edib bizləri xanə viran Hüseynim.

---

[1] *Zəxmdən – yaradan*

Düzülmüş nizam ilə sədrində yarə,
Bacın Zeynəb ölsün bədən parə-parə,
Nə mümkündü qardaş alım bir kənarə,
Nə eləyim muradımca əfğan Hüseynim.

Dönübdü bəradər budər zamanə,
Vurub ölməyin od bəradər cahanə,
Bacın Zeynəbə çox dəyər taziyanə,
Başımdan vurar qomi üdvan Hüseynim.

Fərdi:
Düşüb bacın Zeynəb quş kimi damə,
Suvar naqei üryan bacın gedir Şamə,
Nə zülmlər olacaq mən qəribi biyarə,
Çəkəllər Şamda biz Əhli-Beyti bazarə.

Əgərçi qalıb cismi pakın arada,
Vali mən əsirəm bu qomi inada,
Ola (əbd) biçarə Kərbəlada,
Tökər göz yaşını misli baran Hüseynim.

## BALAM VAY

Ay bu fitri Kərbəlada qanın qəltan balam vay,
Gül kimi o cismi paki xak ilə yeksan balam vay.

Kim səni bu hala saldı ay mahi münəvvər oğlum,
Laxta-laxta qan durubdu ləblərində əhmar oğlum,
Var başında çoxlu yara ay gülü Peyğəmbər oğlum,
Eylərəm qanınla indi zülfümü əlvan balam vay.

Qollarımı bağlayıblar zülmilə bu qomi üdvan,
Pai-piyadə gəzdirlər mən əsiri zari giryan,

Çarə eylə mən qəribə qanlı nəşinə qurban,
Rəxtimiz soyuldu düşdük çöllərə üryan, balam vay.

Gəlmiyir bu qara bəxtin bir kəsə oğul gümanı,
Qoy öpüm yaralarından zülfimlə çəkim bu qanı,
Bəslədim gecə-gündüz mən sən kimi gözəl cavanı,
İndi eylərəm üzümə göz yaşım rəvan, balam vay.

Hansı ananın mənim tək nə murad olub balası,
Həm duşğa gərdəndə çöllərə düşüb anası,
Bey cihaz naqə üstə başında oğul qarası,
Neyləyim mən bala kaş çıxmıyır bu can balam vay.

Əsğərin susuzluğundan sinəmə vurublar yara,
Hərmələ vurubdu peykan canıma düşüb şərarə,
Nazlı xahərin Səkinə başına salıbdı qara,
Baş açıq həmişə eylər naləvü əfqan balam vay.

## YAVAŞ YERİ DİLBƏRİM

Yavaş yeri dilbərim, şəbühü Peyğəmbərim,
Qədəm götürmə oğul, aman Əli Əkbərim,
Cavan Əli Əkbərim.

Bu çöldə məcnun kimi fərağa salma məni,
Əlini əlimdən üzüb qırağa salma məni,
Bu qədər xar eyləyib ayağa salma məni,
Necə dözüm hicrinə aman Əli Əkbərim,
Cavan Əli Əkbərim.

Üzülsə səndən əlim fəğanım ərşə çıxar,
Yəqin ki, Şimri sənan başıma qamçı vurar,
Ölən zamanda səni məzara kimlər qoyar,
Varımdı bircə sözüm aman Əli Əkbərim,
Cavan Əli Əkbərim.

Nə eylədim toy sənə, nə bir nişan taxmadım,
Əli doyunca sənin üzünə bir baxmadım,
Sənin o əllərinə oğul həna yaxmadım,
Necə dözüm hicrinə aman Əli Əkbərim,
Cavan Əli Əkbərim.

Məni bu yerdə Əli qoyma belə xarizar,
Kin ilə bu şamıyan başıma qamçı vurar,
Bir özün insaf qıl bu halə kimlər dözər,
Çeşmim olub xun fişan aman Əli Əkbərim,
Cavan Əli Əkbərim.

Səni eylərlər şəhid bu yerdə qomi cəfa,
Qəhr ilə qamçı vurar başıma Şimri dəğa,
Məni edər xar oğul bu yerdə covri cəfa,
Üzülsə səndən əlim aman Əli Əkbərim,
Cavan Əli Əkbərim.

Vurarlar od xeyməyə ah səmaya yetər,
Şiri xavər1 Əsğərin boğazına ox dəyər,
Tutar oxundan o gün həşr olunca əmər,
Canım üzüldü oğul aman Əli Əkbərim,
Cavan Əli Əkbərim.

Qana boyansan əgər kim silər ay mahi ru,
Yaranı kim bağlayar bəs sənin ay neki xu,
Olmaz anan ta yola saçlarını mubə mu2,
Kim eylər əfğan ol gün aman Əli Əkbərim,
Cavan Əli Əkbərim.

---

[1] *Şiri xavər – südəmər.*
[2] *Mubə mu – saçlarını dənə və dənə.*

## AY DÜŞƏN GÜL BƏDƏNİ

Ay düşən gül bədəni zülm ilə meydana Hüseyn,
Niyə bu cismi lətifin bulaşıb qana Hüseyn.

Hülqundan oğul Hüseyn Peyğəmbər öpüb,
Bəs niyə Şimri dəğa başını zülm ilə kəsib,
Nə səbəbə abı Fəratı hamı bu qomi içib,
Verməyib Şimri su bəs sən kimi ətşana Hüseyn.

Qan tutan gözlərini dur silim, ay təşnə cigər,
Başın üstündə anan Fatimə gör nalə edər,
Ağaran zülfini bu peykəri üryana çəkər,
Fatimə canı fəda bu təşnə üryana Hüseyn.

Düşmüsən kuhi bəla dəştinə yoxdur kəfənin,
Kim oğul qarət edibdir aparıb pirhanını,
Gün qabağında düşüb qanına qəltan bədənin,
At çapırlar niyə bəs peykəri üryana Hüseyn.

Ağlayar qan bu şəhadətdə sənə ərşi bərin,
Ki, kəsib başını zülmilə susuz Şimri lə'in,
Bu nə gündür yaralı başını bu firqei kin,
Düşmüsən zülmilə başsız bu biyabana Hüseyn.

Kəsdi kimlər belə ətfal üzünə bu su yolun,
Kim kəbab etdi atəşdən söylə ətşan dilin,
Kim qələm etdi Əbbas ələmdar qolun,
Saldı gül cismini səd parə biyabana Hüseyn.

Kəsdi kim əllərini zülmilə ətşanım oğul,
Batmısan qana nədən qanına qəltanım oğul,
Saldı kim bu halətə cismini üryanım oğul,
Nə rəvadır bu sitəm sən kimi üryana Hüseyn.

## BU GECƏ KƏRBƏLADA NECƏ TUFAN OLACAQ

***Bu gecə Kərbəlada necə tufan olacaq,***
***Zeynəbin zülmi sitəmdən cigəri qan olacaq.***

Bu gecə nalə çəkib Kərbibəla təşnələri,
Bu gecə şahi Ərəb ölməyə bağlar kəməri,
Bu gecə Ali Rəsula yetər əfğan xəbəri,
Ki, sabah Ali Əli sinəsi suzən olacaq.

Çəkəcək Şimri dəğa zülmi sitəm xəncərini,
Kəsəcək covri-cəfa ilə Hüseynin həncərini,
Qoyacaq xaki müsibətdə onun peykərini,
Ki, sabah ərz səma zülmilə viran olacaq.

Bu gecə əhli hərəm va əbəta söyləyəcək,
Biləsən çərxi fələk zülmi sitəm neyləyəcək,
Əkbəri Əsğər ilə təznə şəhid eyləyəcək,
Ümmu Leylanı görüb zülmi harasan olacaq.

Geyəcək qara bu matəmdə yenə piro cavan,
Fələyin zülmü bu gün dostlara oldu əyan,
Qasimə toy tutuban əllərinə yaxıldı qan,
Nov ərus bu gecə çaki giriban olacaq.

Etməyib çərxi fələk Qasim damada vəfa,
Almayıb kam cahanda o qədər zövq-səfa,
Nov ərusun başına qamçı vurar əhli cəfa,
Madəri Qasimi bi'munis canan olacaq.

Bu gecə zülmi sitəmdən geyəcək qara fələk,
Bu gecə nalə yetər Heydəri Kərara fələk,
Eylədin bəxti qara Zeynəbi biçarə fələk,
Ümməti Xatəmin didəsi giryan olacaq.

Bu nə matəmdi yenə qara geyib əhli hərəm,
Zeynəbin zinətini qara edib möhnəto qəm,
Kəsdilər abe Fəratın yolunu qomi sitəm,
Əkbəri təşnə cigər ləbləri ətşan olacaq.

Dostlar xuni sitəm[1] içdi neçə kasa bu gün,
Geyinib qaranı Kə'bə batacaq yasa bu gün,
Ay gözüm ağlaginan Həzrəti Əbbasa bu gün,
Gedəcək su gətirə qanına qəltan olacaq.

## NƏ RƏVADIR BABACAN

***Nə rəvadır babacan, dalda bu qəmlər qalsın,***
***Gedə meydana hamı xeymədə Əkbər qalsın.***

Təngə gəldim dahi mən zilləti dünyadan ata!
Cana yetdim bu qədər tənei ədadan ata!
Mənə yoxdur bu zaman ediləsi dünyada ana!
Ki, öləm ta quru yerlərdə bu peykər qalsın.

Verərəm nov qala gər ola yüz min canım,
Həqq yolunda tökülüb çeşmələr olsa qanım,
Mən ölməyimə məcbur eyləyir vicdanım,
Zillət ilə belə dünyada kim istər qalsın.

Oldu övladı nəbi tiribəlaya əmac,
Eylədi qomi dini məzhəb dini tarac,
İndi çox qanlardır dini Peyğəmbərə möhtac,
Biz ölək dəhriə ta din Peyğəmbər qalsın.

Nərəva hakim ola milləti İslama Yəzid!!?
Bu nalə belə ki, yağıdır o əhkama Yəzid,

---

[1] *Xuni sitəm – qanlı sitəm.*

Əhli insaf sevərmi yetişə kama Yəzid,
Bülbül istərmi ki, gül xar ilə bərabər qalsın.

Gərək indi edək zərbəti şəmşiri qəbul,
Cana hər qədər gəlsə nizə ilə tiri qəbul,
Eyləsin Zeynuləba gündə zinciri qəbul,
Əsrədə nə libas nə də məcər qalsın.

İstəyir məhv eyləsin düşmən din İslamı,
Yetişib milləti İslama cihad əyamı,
Xeymələrdə necə Əkbər eyləsin aramı,
Necə qan tökməyibən beldə bu xəncər qalsın.

Ya Hüseyn lütfilə qıl cümlə müsəlmana nəzər,
Sizə təqlid edib cihad edən insana nəzər,
Əkbərin həqqilə (şeyx) pərişana nəzər,
Mətləbin eylə rəva qoymaki müztər qalsın.

## KƏRBƏLANIN BÜLBÜLÜSƏN

***Kərbəlanın bülbülüsən mən sənə lay-lay deyim,***
***Vay Səkinə vay deyim.***
***Zeynəbin qönçə gülüsən mən sənə lay-lay deyim,***
***Vay mən Səkinə vay deyim.***

Ay mənim şirin zəbanım, qardaşımın bülbülü,
Vay Əhli-Beytin sünbülü,
Aç gözün bir bax mənə ta mən sənə lay-lay deyim,
Vay mən Səkinə vay deyim.

Qürbət içrə çün tapılmaz sidri kafuru kəfən,
Vay səni bir dəfn edən baş açıq şirin zəbanım,
Mən sənə lay-lay deyim ay mən Səkinə vay deyim.

Bir tərəfdən Əkbərin qəmi məni suzan edib,
Vay didəsi giryan edib ərşə ucalmış fəğanım,
Mən sənə lay-lay deyim ay mən Səkinə vay deyim.

Yox əmin Əbbas Qasim ta xəbərini gətirə,
Vay həm məzari yetirə başıma küllər olubdur,
Vay mən sənə lay-lay deyim vay mən Səkinə vay deyim.

Qardaşın bimar olub yoxdur ona dadirəs,
Vay munisi fəryadı rəs yox Şam içində bir kəsim,
Ta mən sənə lay-lay deyim vay mən Səkinə vay deyim.

Mən sənə qurban olum necə sənin qüslün verim,
Vay qan tökür bu gözlərim gah Əkbərə, gah Əsğərə,
Ta mən sənə lay-lay deyim vay mən Səkinə vay deyim.

## QALAN NƏ'Şİ ARADA

Qalan nə'şi arada şahi xavər oğul vay,
Gedən başı cidadə mələk mənzər oğul vay,
Əli Əkbər oğul vay, ləbi şəkər oğul vay,
Olan Leylaya yavər vəfa pərvar oğul vay.

Nə tez rəsmi vəfanı sərəncama yetirdin,
Anan qolları bağlı oğul Şama gətirdin,
Çəkən zəhmətin axır qürbət eldə itirdin,
Əcəb getdi əlimdən keçən günlər oğul vay.

Bu şam içrə olubdur mənə Şimri çalvadar,
Vurar başıma qamçı baxırlar hamı kafər,
Yəqin öldürəcəkdir məni tənei əğyar,
Deyir Leylaya Məcnun bu düşmənlər oğul vay.

Götür bircə niqabın məni salma nəvaya,
Verə Haşimi xalın verə ziya[1] şəms ilə aya,
Bu Şam əhlinin eyşini[2] oğul döndər əzaya,
Gəlibsən necə vardır mahi ənvər oğul vay.

Anan qolları bağlı dalınca gəzər ağlar,
Qərib ölkə vilayət tökər çeşmi tər ağlar,
Bizə (Şakir) əzəldə nohəgər ağlar,
Çəkər bizim əzada müsibətlər oğul vay.

## BU GECƏ OL GECƏDİR

***Bu gecə ol gecədir nalə edər ərz səma,***
***Bu gecə ol gecədir lərzə edər Kərbəla.***

Bu gecə əhli hərəm şura gəlib ağladılar,
Bu gecə şiri Xudanın qapısın bağladılar,
İbni Sə'd hökm eylədi xeyməl əri odladılar,
Bu gecə sübhə kimi Zeynəb edər şuri nəva.

Bir yanıq xeyməyə cəm oldu əsiran bu gecə,
Sübhədək əhli hərəm eylədi əfğan bu gecə,
Xeymə dövründə gəzər Zeynəbi nalan bu gecə,
Bu gecə sübhə kimi səslədi gəl ya əba.

Bu gecə harişi qəm Kərbibəlaya yığılıb,
Bu gecə xurda uşaq çöllərdə nalan dağılıb,
Bu gecə oğlu ölən Fatimə əfğana gəlib,
Gəzir xeymələri başa salıb yeddi qara.

*[1] Ziya şəms ilə aya – işıq, nur verə günəşə aya.*
*[2] Eyşini oğul döndər əzya – sevinci döndər yasa.*

Düşdü Zeynəb bu gecə sərvəri bəthadan uzaq,
Xeymələrdə bu gecə yanmadı heç şami çıraq,
Ali tahaya yetişdi bu gecə covri fəraq,
Əli qoynunda qaranlıqda qalıblar ey ərşi Xuda.

Bu gecə nazlı Səkinə deyər ay əmmə aman,
Bəs nədən yox bu gecə şam-çıraq, ab ilə nan,
Bu yanıq xeymələr içrə bizə verdilər məkan,
Atamı ver mənə sən dərdimə bir eylə dəva.

Can kimi basdı onu sinəsinə Zeynəbi zar,
Dedi bir ağlama ay bülbül bisəbri qərar,
Səfərə getdi baban olma belə dərdə duçar,
Gəl qucağıma qızım tuti kimi  etmə nəva.

Əmmə can vermə məni bikəsi be yara fərib,
Düşmüşəm bu qurbətdə mənə yoxdu təbib,
Gər babam sağdı olubsan niyə bisəbri şəkib,
Göz yaşın cari olur kimə bə tutubsan əza?

Tifiləm amma bilirəm başımıza küllər olub,
Bir babam altı əmim Əkbər, həm Qasim ölüb,

Görürəm ki, siyah çeşmin yaşla dolub,
Gah əli vay deyirəm, gah deyirəm vay əxa.

## AY ÖLƏN TƏŞNƏ LƏB

***Ay ölən təşnə ləb ətşan Hüseyn, vay Hüseyn,***
***Ay olan qanına qəltan Hüseyn, vay Hüseyn.***

Kərbəla torpağıdır qardaş Hüseynim vətənin,
Necə görsün bü gözüm yerdə qalıb gül bədənin,
Kəfənin qəbrkanın olmadı dəfn edənin,
Ay olan qanına qəltan Hüseyn, vay Hüseyn.
Quru yerdə qalan üryan Hüseyn, vay Hüseyn.

Gətiribsən məni bu qəmli çölə izzət ilə,
Baş açıq Şama aparırlar məni zillət ilə,
Qollarım dalıma bağlandı Hüseyn möhnət ilə,
Baş açıq zülfi pərişan Hüsey, vay Hüseyn,
Yol uzaq naqə üryan Hüseyn, vay Hüseyn.

Başını Şimri lə'in vurdu cidaya qardaş,
Mən necə tab eləyim dərdi bəlaya qardaş,
Qorxuram birdə düşəm təzə cəfaya qardaş,
Başını qomi lə'inan Hüseyn, vay Hüseyn,
Daşlayır qəhr ilə hər an Hüseyn, vay Hüseyn.

Mən hara Kufə hara, küçə-bazar hara,
Mən hara Şam hara firqei əşrar hara,
Zeynəbi zar hara hər quru divar hara,
Ay qoyan Zeynəbi giryan Hüseyn, vay Hüseyn.
Razı olma gedə nalan Hüseyn, vay Hüseyn.

Xulei Şimri dəğa eylədilər xar səni,
Kərbəlada susuz öldürdülər biyyar səni,
Zikr edər sübhü və şam (Zakir) qəmxar səni,
Quru yerdə qalan üryan Hüseyn, vay Hüseyn.

## AH GƏLİN AĞLIYAQ

***Ah gəlin ağlıyaq şahi şühədanı biz,***
***Sinəmizi dağlayaq, bir şahi ətşana biz.***

Ağlayaq ol bikəsin Əkbəri nakamına,
Qasimi Əbbas ilə Əsğəri ətşanına,
Yari havadarına, cümleyi əshabına,
Məclisi qəmdən gələk nalei əfğana biz.

Saldı yerə zülcənah sahibini na təvan,
Şeyhəsini artırıb nalə edib ba fəğan,
Üz qoyub ol hal ilə xeyməyə oldu rəvan,
Ağlayaq ol tövsin[1] kəkili alqana biz.

Ali Əli gördülər nalə edir zülcənah,
Kakili yalı batıb qana gəlir zülcənah,
Çünki ölübdür sahibi nalə qılır zülcənah,
Lazım odur döndərək göz yaşı ümmana biz.

Çıxdı o dəm xeymədən Zeynəbi bixaniman,
Gördü tutubdur yeri paralanıbdır ənan,
Zeynəbin əhvalına ağladı kouni məkan,
Lazım olub ağlayaq Zeynəbi nalana biz.

Zeynəbi biçarənin bağrı olubdur kabab,
Çünkü o heyvana bunu əla qıldı xitab,
Yoxsa ölübdür sahibin aləm edib inqilab,
Düşəcəyik zülmilə dəşti biyabana biz.

Qətli Hüseyndən sonra Şimri lə'inə o dəm,
Hökm eylədi İbni Sə'd xeyməyə qoysun qədəm,
Xeyməni qarət edib yandıra qomi zalım,
Əhli hərəmi salaq atəşi suzana biz.

Çünki gəlib hökm ilə xeyməyə Şimri şərir,
Ali Əli xeymədən çıxdılar xırda kəbir,
Şimri lə'in onları cümlə edib dəstəgir,
Hökm eyləyib olun suvar naqei üryana biz.

Həşr günü, ya Hüseyn etmə (Nəsiri) zəlil,
Sidq ilə istər gəlib qapına olsun dəxil,
Qəbrini bu ça'melə qismət elə bu il,
Ağlayaq ol baqə'də sən kimi ətşana biz.

---

[1] *Tövsin – başı bərk at, yaxşı yeriyən at.*

## XEYMƏLƏRƏ ƏMMƏ CAN

***Xeymələrə əmmə can ləşgəri üdvan gəlir,***
***Əldə tutub Şimri dun xəncəri baran gəlir.***

Əmmə yəqinki bu dəm tapdı şəhadət babam,
Gün tutulub qan yağır etdi Qiyamət qiyam,
Gör ki, tamam atlanıb ləşgəri qomi zalım,
Etməyə qarət bizi ləşgəri sufyan gəlir.

Harda qalıb əmmə can Əkbəri Yusif liqa,
Bəs əmum Əbbas hanı naibi şiri Xuda,
Bizləri yalqız görüb bu həşmi bihəya,
Hərmələ at oynadır Şimri cəza xuvan gəlir.

İndi bu ləşgər bizi eyləyəcəkdir əsir,
Çün gətirib ləşgər eynini çölü Şimri şərir,
Əmmə yaxınlaşıbdı ki, cümlə olaq dəstgir,
Dadımıza bəs nə vaxt ol Şahimərdan gəlir.

Gördü bu halı o gün Zeynəbi biəqraba,
Sovt cəlala dedi: ya Əli əl Mürtəza,
Dada yetiş ya Əli, hər işə müşkül guşa,
Ali Əli üstünə ləşgəri tüğyan gəlir.

Oldu əsiri əduv cümlə o mah parələr,
Qarət olub zinəti zivəri o biçarələr,
Ali Əli qəlbinə dəydi o gün  yaralar,
Dost gözündən belə matəm üçün qan gəlir.

Ağla bu matəmdə ay (Seyid) bəxti qara,
Nəzəm elə bu matəmi şövq ilə sübhi məsa,
Əcrini axır verər padişahi Kərbəla,
Həşrdə fəryadına şafeyi üsyan gəlir.

## AY TƏŞNƏ LƏB KƏRBƏLA

Ay təşnə ləb Kərbəla yadigar mən Hüseyn, Hüseyn,
Ay təşnə şəmşir cəfa xari zar, mən Hüseyn, Hüseyn.
Mərhum Hüseyn, məzlum Hüseyn.

Hanı ələmdarın oğul,
Əbbasi sərdarın oğul,
Yavəri ənsarın oğul,
Həmdəmi dildarın oğul,

Nəşin qalıbdı bikəfən,
Çöllərdə biməzar oğul,
Qərib olubdur bi vətən,
Günlər o gündə xar oğul.

Gülzare mən Hüseyn, Hüseyn,
Oğul vay, Hüseyn vay.

Kim kəsdi əllərin sənin,
Solubdur güllərin sənin,
Doğrandı Əkbərin sənin,
Oxlandı Əsğərin sənin.

Üryan düşübdü peykərin,
Torpaq üstündə paradır,
Mən tək cəfada ay oğul,
Kim belə bəxti qaradır.

Kor olsun gözlər
Görməsin peykərində nə yaradır,
Ay bülbülü xoş nəğməsər,
Növbahare mən Hüseyn, Hüseyn.

Gülzare mən Hüseyn, Hüseyn,
Qərib oğul, şəhid oğul vay.

Hanı Zeynəb xahərin,
Gülsüm qüssə pərvərin,
Bağladı kimlə gözlərin,
Başsız düşübdü peykərin.

Eşitmişəm toy tutmusan,
Qasim növrəs damad üçün,
Hurilər ilə gəlmişəm,
Bu toya mübarək bad üçün.

Zərrin məcər gətirmişəm
Nov ərus nə murad üçün,
Ay sərvi naz dilruba,
Cobari mən Hüseyn, Hüseyn.

Gülzare mən Hüseyn, Hüseyn,
Təşnə ölən oğul vay.

Ay cismi pakı doğranan,
Ay nəşi çöllərdə qalan,
Ay itrəti əsir olan,
Ay xeyməgahı odlanan.

Dağıtdı xanımanını Şimri sənin,
Bədsir öldürdülər səni Hüseyn.
Sinəmə çəkdilər dağlar,
Rəxtin olubdur vay oğul.

Bu xun xak sərbəsər,
Vur başa söylə (faiz),
Şah suvare mən Hüseyn, Hüseyn.

Gülzare mən Hüseyn, Hüseyn,
Ətşan ölən ağam vay.

Olmadı səni dəfn edən,
Qaldı qum üstə gül bədən,
Artdı ürəkdə möhnətim,
Ay Şahe pak mümtəhən.

## KƏRBƏLAYA GƏLDİ ÇÜN PEYĞƏMBƏR

***Kərbəlaya gəldi çün Peyğəmbər Aşura günü,***
***Gördü bərpadır o çöldə məhşər Aşura günü.***

Gördü hər yandan gəlir vur-vur səsi,
Ərşə çıxmış bir tərəf həlmən mubariz nə'rəsi,
Bir tərəfdə öldürürlər bir qəribi bikəsi,
Cəm olub yüz mindən artıq ləşgər Aşura günü.

Nizəyə təkiyyə edib bir şah boynunda kəfən,
Üz tutubdur gah həqqə ki, Xudaya zavalı mən,
Bu Hüseyn, bu Kərbəla, bu Şimri, bu nazik bədən,
Bu Xəndək, bu nizə həm bu xəncər Aşura günü.

Ol Hüseyni ki, bəsləmişdi can içində Mustafa,
Gördü düşmüş parə-parə qan içiində binəva,
Açdı Peyğəmbər başın meydan içində bir məla,
Ağladı, İlahi gələ göylər Aşura günü.

Şad Abu Sufyan olub qaldı Peyğəmbər rəncidə[1],
Oynadı bəxti Yəzid, bihəya şeşi pəncdə,

---

[1] *Rəncidə – narahatlıqda.*

Mat olub şah piyadə ərsei şətr nəcadə,
Fildən saldı Yəzidi əşqir Aşura günü.

Fariq oldu Yəzid, la məzhəb kari şahdan,
Aldı xəncər xeyməgaha gəldi məqtulgahdan,
Nə Peyğəmbərdən həya etdi, nə xofi Allahdan,
Şər nə bildi eylədi o kafir Aşura günü.

Ya Əli qaldı Hüseyn tək neynəvaya gəlmədin,
Çox çağırdım gəl baba öldüm gəl haraya gəlmədin,
Xeybərə getdin nədən bəs Kərbəlaya gəlmədin,
Doldu sovt[1] ya Əli ilə çöllər Aşura günü.

Ay Xəlilə atəşi Nəmrudi gülzar eyləyən,
Binəva Mənsuri həqq üstündə bəradər eyləyən,
Bu şəhidin nohəxanın (şəms əttar) eyliyən,
Gəlmədin qaldı Hüseyn biyavər Aşura günü.

## VA HƏSƏNİ MÜCTƏBA

Əhli əza xətmi Peyğəmbərə,
Cümləsi qan ağlayır ol sərvərə,
Va Həsəni Müctəba.

Bu fələk ki, dərvişi kinəvər,
Eylədi dünyada bizi xaki sər,
Cam əcəli qismən xeyr ilə şər,
Oldu yetib nalə bu ümmətlərə,
Va Həsəni Müctəba.

Ah! Vəfat etdi Rəsulu Xuda,
Qaməti ümmətləri qıldı dərdə əta,
Ağlayarıq həşrə kimi bir məla,

---

[1] *Sovt – səs ilə.*

Ah ilə biz od vurarıq göylərə,
Va Həsəni Müctəba.

Başı açıq sinə zənan ağlarıq,
Əhli cahani qəm ilə dağlarıq,
Xətmi Rəsul matəmin saxlarıq,
Tuşa ola ta səfəri məhşərə,
Va Həsəni Müctəba.

Düşdü yenə yada qəmi Kərbəla,
Murğu dilim eylədi ney tək nəva,
Hərmələ aldı ələ tiri cəfa,
Vurdu o dəm hülqü Əli Əsğərə,
Va Həsəni Müctəba.

Ləşgəri bəd, tinəti bəd, kişi dun,
Eylədilər cürəti həddən fəzun,
Qasimi damadi edib qərq xun[1],
Etmədilər rəhm Əli Əkbərə,
Va Həsəni Müctəba.

Həzrət Əbbas Əbul Sifi şir,
İzni cahad aldı Hüseyndən dəlir,
Ərsei rəzmə yetib ol şiri kir,
Vurdu özün bərq kimi ləşgərə,
Va Həsəni Müctəba.

Gördü Hüseyn qətl olub ənsərlər,
Xakə həm ağuşdar ixvənlər,
Söylədi ay firqei sufiyanilər,
Rəhm eləyin itrəti Peyğəmbərə,
Va Həsəni Müctəba.

---

[1] *Qərq xun – qana qərq*

Şimri cəfa peşei kinə şa'ər,
Qətli Hüseynə kəmərin əstə var,
Eylədi ol lə'nəti həqqə düçar,
Vurdu şil olmuş əlini xəncərə,
Va Həsəni Müctəba.

Gözləmədi şəriəti Quranını,
Tərk elədi dinini vicdanını,
Eylədi məqtul müsəlmanını,
Tfu, lə'nət belə müsəlmanlara,
Va Həsəni Müctəba.

Həncərinə qoydu cəfa xəncəri,
Qıldı tuta qaməti Peyğəmbəri,
Adət olub yazmağa qəm dəftəri,
(Seyyidi zərgər) aləm pərvəri,
Va Həsəni Müctəba.

## ABAD OLA EVİN QƏMXANƏ KƏRBƏLA

***Abad ola evin qəmxanə Kərbəla,***
***Çox hörmət eylədin mehmana Kərbəla.***

Mir ab Kovsərin oğlu çəkib fəğan,
Qəbri Fəratda ləb təşnə verdi can,
Adətdi dəhridə başın kəsən zaman,
Hər dəm su göstərər qurbana Kərbəla.

Əflakə çulqanım avazi əl'ətəş,
Ətfali Əhli-Beyt çün duxtəran nə'aş,
Su, su deyib axır tamami edər qəşş,
Qəmdən gəlibdilər əfğana Kərbəla.

Binəvae tahir xatun binəzir,
Qolları bağlanıb Şama gedir əsir,
Zeynəb cəfasına nə olubdu dəlir,
Rikabdı naqei üryana Kərbəla.

Bu mizbanlığın eylər səni məlul,
Etsə sual məgər məhşər günü Bətul,
Düşmüş qum üstünə sibtei Rəsul,
Dört min yara ilə meydana Kərbəla.

Ay əbru simsar abın dəşt ara,
Bir qətrə içmədi övladi Mustafa,
Dönsün görüm sənin ay abı por cəfa,
Abı Fəratını al qana Kərbəla.

Xun cigər olub bimar şəriəti,
Aya dəgilmi bəs təb hərarəti,
Əbbasi Əkbərin əndəva möhnəti,
Gətdi o bikəsi gör cana Kərbəla.

Etməm sənə şəbeh Kə'bə diyarını,
Firdos həştimin bağ şimarını,
Ağuşa çəkmisən Əkbər məzarını,
Yar olmusan əcəb cana Kərbəla.

Mədfundu səndə ol sərvəri qərib,
Gər dərgəhin verir ərşi Xudaya zib,
Axır nəfəsi ona ta olasan nəsib,
Həsrətdir (Ğəss) divana Kərbəla.

## TEZ YETİR BİRCƏ ÖZÜN

Tez yetir bircə özün ərsei meydana baba,
Boyanıb lalə sifət Əkbərin əl qana baba.

Ay verən əşq mə'nasında fəda oğlum özün,
Gəl baba oğlun ölür bağlaginan bari gözün,
Döndərərlər tərəf qibləyə qurbanın üzün,
Su verərlər hamı bu dəhridə qurbana baba.

Qəlbi ədadə bu çöldə eylədi kinə bəruz,
Qatilim rəhm eyləməz öldürür qurbanı susuz,
Əkbərin qatil əlində nəfəsi vardı hənuz,
Gəl nəzər eylə bu məqtuli ləb təşnə baba.

Verə gər rai Xudada biri şövq ilə fəda,
Ol zibhin başı üstündə gərək hazır ola,
Çox savabdır ki, üzünü sidq ilə torpağa qoya,
Rəsmdir bu hamı dünyada müsəlmana baba.

Dövrəmi mərakədə tutdular çün nəqşinəgin,
Kəsdilər yollarımı əhli cəfa əzrakin,
Eylədi mənqizi bidin, bikəb qəhr ilə kəmin,
Vurdu bir yarə susuz bu dili suzənə baba.

Ölürəm gəl başım üstə bu dəm ay Miri Hicaz,
Can verən vaxta edim ta sənilə razu-niyaz,
Çünki bu rəsmidi məşuqinə aşiq edə naz,
Bu ölən vaxt gərək can yetə canana baba.

Səhldir vermədi bu zümreyi ədu mənə su,
Ərsei cəngidə sərgərm görüb qomi ədu,
Vurdu bir yara başımdan baba bir yarada bu,
Bir yetişmişdi bu yara Şahi Mərdana baba.

Gəl bu hal ilə baba gör bir Əli Əkbərini,
Soldurur zülmilə bu çöldə ədu güllərini,
Bilirəm Şimri sənində soyacaq peykərini,
Gəl məni çək bu ölən vaxta bir yana baba.

Ali Peyğəmbərə su oldu bu səhrada haram,
Bilirəm kim nədi bu qomidə mənzuri məram,
Gəl apar xeyməyə bir də üzümü görsün anam,
Görsə bu hal ilə əgər olur divana baba.

Eylə (dilxun) bu qəmi sübho-məsa şərhi bəyan,
Göz yaşın eyləginən səfhei ruxsara rəvan,
Söylədi Əkbər şahzadə aya şahi cahan,
Boyanıb lalə sifət Əkbərin al qana baba.

## GƏL HALAL EYLƏ ƏZMİ MEYDANIM ANA

***Gəl halal eylə əzmi meydanım, ana,***
***Bir an sənə bu xeymədə mehmanam, ana.***

Çün verib sərvəri ləb təşnə mənə izni cihad,
Eyləyib xətr naşadımı bir hərf ilə şad,
Qalmayıb həsrətim əlimdə budur əini murad,
Xaki payında Xudai ruh cananam, ana.

Bu toy sözü gəzər içrəh budur kəşmə-kəşim,
Safa çıxdım əridim qalmadı bir qul qəşim,
Bi ədəb sanma məni bəski varımdır atəşim,
Quruyub qönçə dodağım oddu xanedanım, ana.

Gülşən cismi olub bərqi biganə susuz,
Ciddi cəhdim budur indi boyandım qana susuz,
İçmərəm su gedərəm məclisi canana susuz,
Çünki mən təşnələbi çeşmeyi həvanam, ana.

Bilirəm öldürəcəklər məni əqrarım var,
Hər qətilgahda min qətl xunxarım var,
Bəski əbrövü nakar ilə sərvkarım var,
Maili tiği kəc xəncəri borranam, ana.

Olmuşam ruzi əzəldə ana çün mail dost,
Bimaram indi qızıl qana bir ay dili dost,
Sərv səmənim olub silsileyi kakili dost,
Demə bu silsilədə bisərvi səmənəm, ana.

Bağlanıb su yolu sənə şükr açıqdır ruhi əşq,
Kərbəla dəşti olub məhzər şahnişanə əşq,
Kəştie əşq ilə məmludu[1] qurbanına əşq,
Qoy gedim mən də verim can sənə qurbanam, ana.

Doldu qanilə könül kasası peymanə[2] kimi,
Tel bə tel xiyali zülfilə şanə[3] kimi,
Üz tutum çöllərə, vardı yeri divanə kimi,
Bəski sevdazadei zülfi pərişanam, ana.

Bu qədər ağlama qurban olum ağlar gözünə,
Qanlı göz yaşını bu növ ilə tökmə üzünə,
Anacan səbr eylə ver bircə təsəlli özünə,
Görsən onda ki, mən öz qanıma qəltanam, ana.

Tuta hər kimsə Əli Əkbərə aləmdə əza,
Şahi ləb təşnə verər əcrin onun ruzi cəza,
Yaz dübarə bu sözü dəftərə (sərraf rza),
Gəl halal eylə məni əzm meydanam, ana.

---

[1] *Məmludu qurbanına əşq – eşq qurban verməyə doludur.*
[2] *Peymanə – məs: ölçü qabı, kasa.*
[3] *Şanə (daraq) kimi bir-bir gəzirəm xəyal ilən.*

## QARDAŞ BULAŞIB NİZƏDƏ AL QANA BU BAŞIN

***Qardaş bulaşıb nizədə al qana bu başın,***
***Bu Zeynəbi saldı yenə əfğana bu başın.***

Hər yerdə gəlir tərifə cəfa belə zuhurə,
Müsbah həda etdi başın ayei nurə,
Ayə nə rəvadır düşə müşki əvət tənurə,
Ol şama məni eylədi pərvana bu başın.

Bir təzə əlamət görürəm səndə nümayan,
Ruxsarına caridi başından nədən alqan,
Kim başını sındırdı olum sənin başına qurban,
Bir şuri salıb Kufədə dövrana bu başın.

Hansı qəminə səbr eləyim bəs mən külbaş,
Bu halda görsün səni xahər necə qardaş?
İndi bu cida üstə vurublar başına daş,
Məşğuldu bu zəxm ilə Qurana bu başın.

Qan pərdəsi ma'ne deyil ol mah cəmalə,
Qan bədr cəmalında durubdur necə halə,
Bir guşei çeşm ilə nəzər qıl bu əyalə,
Heyran baxır ol nizədə hər yana bu başın.

Hər dəm ki, oxur qanlı başın nizədə ayə,
Təskindi bu Zeynəbə həm bu üsərayə,
Başın dalınca dözərəm covri cəfayə,
Lütf ilə baxar camei pərişana bu başın.

Bu Kufədə tuğyan eləyib əhli şəqavət,
Qoymazlar ailən ola asudəvü rahət,
Hey tə'nə vurarlar hey tə'nə şəmatət,
Bilməm nə edib firqei üdvana bu başın.

Sənsiz yetişir Zeynəbə çox qussə dəmadəm,
Müşküldü ki, səndən sonra bu qəlb ola xurrəm,
Əfğan ilə yar olmuşam hicran ilə həmdəm,
Saldı məni atəşi hicrana bu başın.

Yetməz bu cəfalar ki, olub şəhri təmamə,
Vurmuş bu ədu zülm ilə zəncir imamə,
İndi aparır Şimri sənan, cənabı Şamə,
Min bə'di[1] düşər zülmi firavana bu başın.

(Müztər) Bu qəmi kəşf eyləmə sabidi  mətləb,
Ya Allah onu sən ruzi cəza – (faizi) məğrəb,
Fəryad o zamandan  buyurub Kufədə Zeynəb,
Qardaş bulaşıb nizədə al qana bu başın.

## GƏLMİŞƏM KƏRBƏLAYA

***Gəlmişəm Kərbəlaya mən ələmdarım ilə,***
***Çünki əhd eləmişəm ruzi əzəl yarım ilə.***

Vermişəm ruzi əzəl Əkbərimi həqqə fəda,
Doğrayıb cismini paimal edə bu əhli cəfa,
Ola züvvarinə ta həşr günü rahnüma,
Gələcək ruzi cəza zümrei züvvarım ilə.

Etmişəm əhd əhatə oluna dövri bərim,
Ta başsız ətşan yana canım cigərim,
Bağlana qol-qola ətfal dil azərdilərim,
Ac susuz çöl gəzələr əbdebimarim ilə.

Yetişib vaxt gərək Əkbərimi doğrayalar,
Ay bacı bu südəmər Əsğərimi oxlayalar,

---

[1] *Min bə'di- məndən sonra.*

Mən öləndən sonra həm qollarını bağlayalar,
Belə əhd eyləmişəm vəqf əsrarım ilə.

Get bacı bircə kəfən Əkbəri mərvaya gətir,
Söz ilə nalə çəkib başına torpaq sovur,
De gəlib oğluna zinət edə Leyla ki gedir,
Görüşə sərvəri din Əhmədi muxtarım ilə.

Ay olan möhnəti qəm işnə sərdar bacı,
Dəsti gir etsələr gərçe səni əşrar bacı,
Səbr qıl etmə fəğan ay mənə qəmxar bacı,
Pasibanam mən sizə qadiri qəffarım ilə.

Gedəsən Şama əgər mən də səninlə gedərəm,
Hər yerin tə'ninə canımla şərakət edərəm,
Qorxma cəddim kimi məndə bacı sahabi hənirəm,
Düzərəm dodağıma itrəti ətharım ilə.

İltifat eylə gələn (əhqəri) əytdən nur,
Həşrdə eylə şərafət ona – kani sərvər.
Nalə qımaqdır sənə kari onun şami səhər,
Dut əlin həşr günü Heydəri Kərrarım ilə.

## BAXDI ÇÜN ƏKBƏRİNİN NİZƏDƏ LEYLA ÜZÜNƏ

***Baxdı çün Əkbərinin nizədə Leyla üzünə,***
***Gördü zülfi tökülüb çün şeyda üzünə.***

Gəldi şura dedi ay şəmsi şəbistanım oğul,
Yetmədin kam murada mah tabanım oğul,
Həşrə tək dalda qalıb çıxmadım bu canım oğul,
Gəlməyəydi ananı kaş bu dünya üzünə.

Ey səba bircə əs ol zülfi pərişanı dağıt,
Xanimanı dil viranei Leylanı dağıt,
Dil viranei Leyla kimi dünyanı dağıt,
Qoyma düşsün daha ol zülfi səmən saya üzünə.

Çün kənar etdi səba zülfi şəkin por şəkəni,
Görünüb həşmi xəlilə xəti vəl hüsni,
Məhv olub cümləsi tökdülər dəfdə yarəni,
Bir baxıb Əkbərə bir baxdılar Leyla üzünə.

Qaşların tağı oğul surei «Yasin» oxuyur,
Baxsa hər kim üzünə ayeyi tasin oxuyur,
Hili Qurandı bular cümləsi tasin oxuyur,
Necə çəkdilər qılınc məzhəri taha üzünə.

Dedilər kimdi bu ovrət bizi nalan eyləyin,
Yoxsa Leyladı bu məcnun kimi əfğan eyliyən,
Səni ay təzə cavan qanına qəltan eyliyən,
Necə məhşərdə baxar Həzrəti Zəhra üzünə.

Etdilər çahi zəməxdana həsrət ilə nəzər,
Zər xərid1 olmaq üçün bir-birinə verdi xəbər,
Tökdülər Şam zəlixələri çün əşk bəsər2,
Baxdılar həsrət ilə Yusifi kən'an üzünə.

Ərzin sənha incil Xudavəndi Davud,
Nizə başında başın həm oxuyur surei «Hud»,
Deyəsən bir yanda durub qomi yəhud,
Dərkin üstündə baxır hamı İsa üzünə.

Məzhəri hüsnün Peyğəmbərə rəxalında sənin,
Ayeyi «Şəms» zahiri mah camalındı sənin,

---

[1] *Xərid – yə'ni qızıl almaq üçün bir birinə verdi xəbər.*
[2] *Əşk bəsər – qızıl qanlı göz yaşı tökdülər.*

Surei «Nun» qələm həşmi xalındı sənin,
Kəkilin pərdə çəkib Leylayı əsrar üzünə.

Başındakı şuri şəhadəti sənin tacın oğul,
Ərzin Kə'bə hərmələr hamı həcacın oğul,
Rəfrəfin nizə, mübarəkdi bu me'racın oğul,
Qaşların qiblədi qousin o ədna üzünə.

Mah üzünə ay eynə məshəf Tövrət, Zəbur,
Atəşi tur təcəllədi cəmalında zühur,
Misirdə Şam bu qibtilərə ay vadie tur,
Ali firon gəlib baxmağa Musa üzünə.

Sabirə hər il əza saxla Əli Əkbərə sən,
Kərbəlada gedib ağla o şahı dübarə sən,
Gəl qiyamətdə bu cam ilə səf məhşərə sən,
Qalma həsrət iki dünyada bu mövla üzünə.

## DUR AY DAVALAR ASLANI

***Dur ay davalar aslanı Əbəlfəzlim ələmdarım,***
***Axan su tək qızıl qanı Əbəlfəzlim ələmdarım.***

Daha tutmur dilim qardaş, dur ay arxam elim qardaş,
Sınıb sənsiz belim qardaş, Əbəlfəzlim ələmdarım.

Kəsib düşmən yolun axır, salıb sağı solun axır,
Nə baş var nə qolun axır, Əbəlfəzlim ələmdarım.

Anan yoxdur kəsə yanın, bacın yox xuşq edə qanın,
Axıb qanın, gedib canın, Əbəlfəzlim ələmdarım.

Ələmdarım zəbun oldun, qətli qomi dun oldun,
Ələmtək sərnigün oldun, Əbəlfəzlim ələmdarım.

Oğul yox dərdimi bilsin, mənə yaru mu'in olsun,
Oğulsuz qardaşın ölsün Əbəlfəzlim ələmdarım.

Özün məqsədinə yetdin, belə ərbabı tərk etdin,
Məni yalqız qoyub getdin, Əbəlfəzlim ələmdarım.

Ay mahi bəni Haşim, mənim istəkli qardaşım,
Dönüb əlqana göz yaşım, Əbəlfəzlim ələmdarım.

Desəm görmür gözüm, qardaş, yəqin düzdur sözüm, qardaş,
Sənə qurban özüm qardaş, Əbəlfəzlim ələmdarım.

Özün getdin xilas oldun, dolu peymana tək doldun,
Gülüstanım nə tez soldun, Əbəlfəzlim ələmdarım.

Səni kim qərq edib qana, salıb bu qanlı meydana,
Yanar bu hala bigana, Əbəlfəzlim ələmdarım.

Bu qürbətdə vahid oldum, köməkdən naümid oldum,
Sən öldün mən şəhid oldum, Əbəlfəzlim ələmdarım.

Qalıb (Sərrafi) biçarə, mahiti qəmdən avarə,
Özün qıl dərdinə çarə, Əbəlfəzlim ələmdarım.

## YA ƏMİRƏL-MÖ'MİNİN

***İbni Mülcəm na müsəlman ya Əmirəl-mö'minin,***
***Eylədi zülmində tuğyan ya Əmirəl-mö'minin.***

Doldu yer bəsin gördü bu dünaynı fəzli cavad belə,
Olmusan məşğul söhbətə Həzrəti mə'bud ilə,
Bir-birə vurdu başından tiği zəhr alud ilə,
Oldu məşuq mah taban ya Əmirəl-mö'minin.

Yığdı vənşəqq əl qəmər sibtin qəza bir dəftərə,
Saxlayıb göstərdi bir-bir Həzrət Peyğəmbərə,
Aqibəti bu şivə sərməşq oldu Əli Əkbərə,
Məşqi eşq aldı başından ya Əmirəl-mö'minin.

Vurdu bir zərbət sənə gər ibni Mülcəm nabəkar,
Yetmədi cisminə daha bir özgə yerdən zəxmidar,
Gör sənin firqətinlə bu firqətin nə qədər fərqi var,
Bir bədən peyki zəxmi peykan ya Əmirəl-mö'minin.

Ah o gündən gördüm mən qəza Əkbərin başına,
Baxmayın Leylaya rəhm heç etməyib göz yaşına,
Bir qılınc vurdu başından keçdi yetdi qaşına,
Tutdu şəhla gözlərin qan ya Əmirəl-mö'minin.

Baş qılıncländı axıb qanı yer üzünə su kimi,
Dövrəsin səyyad alıb bir zəxmidar ahu kimi,
Haləti zarın pərişan gördülər qis kimi,
Etdilər cismin pərişan ya Əmirəl-mö'minin.

Oldular hücum birdən əvru o ətşanın üstünə,
Üz qoyub na müsəlman bir müsəlmanın üstünə,
Oxu ox üstən vurdular peykanı peykan üstünə,
Zəxmindən cismi oldu şan-şan ya Əmirəl-mö'minin.

Gördülər bi balu-pər düşmüş o şəhbare hərəm,
Gər əhli Kufə və Şam etdilər cürət behəm,
Vurdular xəncər olub xəncər dəmində qəddi xəm,
Su deyib verdi susuz can ya Əmirəl-mö'minin.

## GETMƏ BU MEYDANA

***Getmə bu meydana sənsiz təng olur dünya mənə,***
***Ya anam Leylaya bax rəhm eylə qardaş ya mənə.***

İstəsən qardaş Səkinə xanə viran olmasın,
Sünbül kovsi üzündə qoy pərişan olmasın,
Bu gözüm yaşı əli sənsiz necə qan olmasın,
Üz verər bu çöldə yüz min möhnət əza mənə.

Qətlinə amadədir səf-səf gərvi kinəçu,
Getmə getsən öldürər axır səni qomi ədu,
Səndən özgə bir nəfər yoxdur nə qardaş nə əmu,
Mehriban olsun bu gün versin təsəlli ta mənə.

Tökməyim ruxsar zərdim üzrə qan yaş neyləyim,
Getməyim Şama kəsik başınla bir baş neyləyim,
Etməyim covri cəfadan şikayə qardaş neyləyim,
Sərzneş etsə əgər aləm mənə ədna mənə.

Sən mənim aramcanım mehribanımsan Əli,
Aləm mə'nada ruhimsən rəvanımsan Əli,
Lalə gül ruxsarilə çün gülüstanımsan Əli,
Çox münasibdir deyilsə bülbüli şeyda mənə.

Can verir lə'l ləbin hər dəm mənə İsa kimi,
Mat mubahud olmuşam bu ərsədə Musa kimi,
Cəmali hüsnün təcəlli eyləmiş Sina kimi,
Kərbəla səhrası olmuş vadie Sina mənə.

Çün busat eşqidə sənsən əmiri səlsələ,
Məndə bu eşq ilə olam dəstigir səlsələ,
Şimri dun eylər məni bica əsir səlsələ,
Turfə zəncir bəladır zülfi ənbərsən mənə.

Mən əzəl gün aşna oldum bəlai eşq ilə,
Eylədim ülfət sənintək aşnai əşq ilə,
Əldə var fürsət Əli mən mübtəla əşq ilə,
Bir danış yatmayasan dərdi aləm əsla mənə.

Mən Əli sənsiz yəqin biganəyə ram olmaram,
Ağlaram sübhü məsa hicrində aram olmaram,
Sən mənimlə getməsən mən daxili Şam olmaram,
Məskəni mavi olar ahu kimi səhra mənə.

Daim eylərdim səninlə şad xurrəm könlümü,
Eylədin axırda yaxşı mail qəm könlümü,
Bağlaram indi sər zülfündə möhkəm könlümü,
Ta görüb həsrət çəkə məcnun sənə Leyla mənə.

Baxma (Sərraf) zəliləm rusvayam ya Hüseyn,
Səndən özgə yox pənahım bipənaham ya Hüseyn,
Tut əlimdən qərqe dəryai günaham ya Hüseyn,
İltifatın olsa neylər yüz belə dərya mənə.

## ÖLÜRƏM BİRCƏ YETİŞ DADƏ ƏMİ

***Ölürəm bircə yetiş dadə əmi,***
***Qoyma nə'şim qala səhrada əmi.***

Başım üstə əgər gəlsə səsin,
Can verər cismimə İsa nəfəsin,
Anama söylə məni gözləməsin,
Qaldı həsrət mənə dünyada əmi.

Aldı ətrafımı bu ləşgəri kin,
Yolumu kəsdi əmi Şisi lə'in,
Daha gəlmək mənə çox oldu çətin,
Sən özün gəl yetiş imdada əmi.

Səslərəm yetmir  bir yana səsim,
Dəydi ox sinəmə sındı qəfəsim,
Sən gəlincə olur axır nəfəsim,
Çox dəyib yara bi nişada əmi.

Məni yalqızladı bu qomi ədu,
Susuz öldürdü əmi verdmədi su,
Qırmız qanım olub abı vuzu,
İsti qumlar mənə səccadə əmi.

Şahbazın demə bi şəhbər olub,
Tiri ədada mənə balu-pər olub,
Qatilim əldə tutub xəncər olub,
Başımı kəsməyə amadə əmi.

Susuz ölmək nə ki zəhmətdi mənə,
Bu yolun zəhməti rəhmətdi mənə,
Ölürəm eyni səadətdi mənə,
Sal bu halətdə məni yada əmi.

Şam etdilər əhli cəfa gündüzünü,
Sandılar nəhaqq əmu həqq sözünü,
Gəl üzüm yerdə görüm birdə üzünü,
Yalvarım qoyma bu cəllada əmi.

Ay əmi qaldı quru yerdə başım,
Sayə görməz bilirəm bir də başım,
Allah əlhəmd olub axırda başım,
Aşna xəncəri fulada əmi.

Tökməsə bir belə göz yaşı gözün,
Yandırar aləmi bu odlu sözün,
Oxu bu misrayı (Sərraf) özün,
Ölürəm bircə yetiş dada əmi.

## AY ŞAHİ DÖVRAN OĞUL

***Ay şahi dövran oğul, ya Hüseyn, va Hüseyn ,
Ümmətə qurban oğul, ya Hüseyn, va Hüseyn.***

Ağladı çün bəşər, ya Hüseyn, va Hüseyn,
Oldu mübarək səfər, ya Hüseyn, va Hüseyn,
Yazdı qəzavu qədər, ya Hüseyn, va Hüseyn,
Qətlinə fərman oğul, ya Hüseyn, va Hüseyn.

Fərdi
Bu Kərbəla səfərindən döndü qana cigər,
Bəşər nəvaya gəlib cinlər fəğan eylər,
Qəzavu qədər qələmi qətlinə yazıb fərman,
Susuz dodaqlarına can oğul anan qurban.

Şimrin oğul xəncəri, ya Hüseyn, va Hüseyn,
İncitdi Peyğəmbəri, ya Hüseyn, va Hüseyn,
Bəslədiyim peykəri, ya Hüseyn, va Hüseyn,
Doğradı üdvan oğul, ya Hüseyn, va Hüseyn.

Fərdi
Qoyanda Şimri lə'in həncərinə xəncər oğul,
Başın aşağı salıb ağladı Peyğəmbər oğul,
Sinəmdə bəslədiyim can kimi əziz bədəni,
Salıblar yerə başsız ki, yoxdur dəfn edəni.

Oldu qaranlıq hava ya Hüseyn va Hüseyn,
Titrədi ərşi Xuda ya Hüseyn va Hüseyn,
Kəsdi çün Şimri dəğa ya Hüseyn va Hüseyn,
Başını daldan oğul ya Hüseyn va Hüseyn.

Fərdi
Düşəndə sən yerə atdan qaraya batdı səma,
Günün üzü tutulub titrədi həm ərşi Xuda,
Kəsəndə başını daldan o Şimri bəd kiridar,
Qəza yeli əsdi cahan tirə oldu aləm tar.

Oldu qiyamət əyan, ya Hüseyn, va Hüseyn,
Yer üzünə yağdı qan, ya Hüseyn, va Hüseyn,
Kəsdi əlin sariban, ya Hüseyn, va Hüseyn,
Dərdinə qurban oğul, ya Hüseyn, va Hüseyn.

Fərdi
Qiyamət oldu əyan yer üzünə qan yağdı,
Həm aşkara həm əzizim həmi pünhan yağdı.
Kəsəndə əllərini sariban anan gəldi,
Ayağa dur bir oyan mehriban anan gəldi.

Qandan elə dəstəmaz, ya Hüseyn, va Hüseyn,
Yerdə otur qıl namaz, ya Hüseyn, va Hüseyn,
Bir elə razi niyaz, ya Hüseyn, va Hüseyn,
Əhdinə peyman oğul, ya Hüseyn, va Hüseyn.

Fərdi
Götür bu qanı bir də dəstəmaz eylə,
Bu axır ömrüdə başsız oğul namaz eylə.
Düşəndə səcdəyə canana ver gələn canın,
Qəbuldur ki, olubdur tamam qurbanın.

Yoxdur əza saxlayan, ya Hüseyn, va Hüseyn,
Başa vurub ağlayan, ya Hüseyn, va Hüseyn,
Gözlərini bağlayan, ya Hüseyn, va Hüseyn,
Ölsün anan can oğul, ya Hüseyn, va Hüseyn.

Fərdi
Gözünü qandan edib pak bağlayan olmaz,
Səni fəğana gəlib bir dəm ağlayan olmaz.
Sənin bu halətinə bir zaman yanan yoxdur,
Anan kor olsun əzizim məgər anan yoxdur.

Öldü Əli Əkbərin, ya Hüseyn, va Hüseyn,
Qasimi gül peykərin, ya Hüseyn, va Hüseyn,
İçmədi su Əsğərin, ya Hüseyn, va Hüseyn,
Verdi susuz can oğul, ya Hüseyn, va Hüseyn.

Fərdi
Belini bükdü Əli Əkbərin fərağı oğul,
Ki, həşr olunca sağalmaz yəqindi dağı oğul,
Əli Əsğərinə Fatimə anan qurban,
Oğul ata qucağında verirmiş can.

Halına ağlar mələk, ya Hüseyn, va Hüseyn,
Qara geyər həşrətək, ya Hüseyn, va Hüseyn,
Bəs niyə çərxi fələk, ya Hüseyn, va Hüseyn,
Olmadı viran oğul, ya Hüseyn, va Hüseyn.

Fərdi
Çəkildi göylərə qara, mələk batıb yasa,
Qan ağlayır gecə-gündüz vəfalı Əbbasa,
Qoyubdu tac yerə baş açıbdı İsrafil,
Olubdu mərsiəxan Kərbəlada Cəbrail.

Yetdi xəzan güllərə, ya Hüseyn, va Hüseyn,
Qəm qaldı bülbüllərə, ya Hüseyn, va Hüseyn,
Düşdü bacın çöllərə, ya Hüseyn, va Hüseyn,
Soldu gülüstan oğul, ya Hüseyn, va Hüseyn.

Fərdi
Xəzan yetişdi gülüstana nəstəran soldu,
O lalə bağrına dağ bastı yasəmən soldu,
Gülündən ayrı düşüb əndəlib biçarə,
Gah nəvayagəlib yalvarır gah xarə.

Qoymadı yolsun başın, ya Hüseyn, va Hüseyn,
Töksün üzə göz yaşın, ya Hüseyn, va Hüseyn,
Bacı ölən qardaşın, ya Hüseyn, va Hüseyn,
Ağlamadı can oğul, ya Hüseyn, va Hüseyn.

Fərdi
Bu nohə öləndə bacı yolar başın,
Edər üzərinə cari həmişə göz yaşın.
Dəxi qoymdılar bir dəm ağlasın Zeynəb,
O qanlı gözləri bari bağlasın Zeynəb.

Ağladı xurşidi mah, ya Hüseyn, va Hüseyn,
Ərşə çıxıb dudi ah, ya Hüseyn, va Hüseyn,
Yandı tamam xeyməgah, ya Hüseyn, va Hüseyn,
Getdi o dövran oğul, ya Hüseyn, va Hüseyn.

Fərdi
Bu əhli Kufə səninlə Hüseyn ədavət edib,
Tamam xeymələri odlayanda qarət edib,
Yananda Kərbəlada oğul o dərgahın,
Hər ikisi kor oldu mehr ilə mahın.

Bcıların qol-qola, ya Hüseyn, va Hüseyn,
Bağlandı gəl sal yola, ya Hüseyn, va Hüseyn,
Evin abad ola, ya Hüseyn, va Hüseyn,
Dur getdi karvan oğul, ya Hüseyn, va Hüseyn.

Fərdi
Səkinəni dur ayağa bir al qucağına sən,
Susuz dodaqlarını qoyginan dodağına sən.
Tamam başlar açıq yoxdur bir yetən dada,
Gəlin piyada gedir ver xəbər o damada.

Oğlu ölüb Zeynəbin, ya Hüseyn, va Hüseyn,
Qəlbi dolub Zeynəbin, ya Hüseyn, va Hüseyn,
Məhmil olub Zeynəbin, ya Hüseyn, va Hüseyn,
Naqei üryan oğul, ya Hüseyn, va Hüseyn.

Fərdi
Əzizim Zeynəbi xar edib fələk dövri,
Başı tamam ağarıb həm gedibdi gözünün nuri.
Gedib cəlalı əlindən ölübdü qardaşı,
Mənim kimi həm onunda bəlalıdır başı.

Bülbüli qəm (Bakı)nın, ya Hüseyn, va Hüseyn,
Bəhri ələm (Bakı)nın, ya Hüseyn, va Hüseyn,
Eyləyərəm (Bakı)nın, ya Hüseyn, va Hüseyn,
Dərdinə dərman oğul, ya Hüseyn, va Hüseyn.

## ZEYNƏB KİMİ DÜNYADA BƏLALAR ÇƏKƏN OLMAZ

***Zeynəb kimi dünyada bəlalar çəkən olmaz,***
***Şam içrə qalıb qürbət ara bi vətən olmaz.***

Çün oldu təvəllüd anadan düşdü bəlayə,
Bir giryaknan baxdı o dəm şəbri Xudayə1,
Ki, baxdı Hüseyn anası bəxti qarayə,
Zeynəb kimi bir gohər dürədən olmaz.

Gül dəstəsi tək aldı qucağına şahi mərdan,
Artıq eylədi ağlamağın Zeynəbi nalan,
Çün verdi İmam Hüseynə höccəti yəzdan,
Gördülər belə tuti əşkar şakən2 olmaz.

---

*[1] Bir giryakinən baxdı o dəm şəbri Xudaya – bir hərəkətlə baxdı o dəm Allahın verdiyi hədiyyəyə.*
*[2] Şakən - şikayətçi olmaz.*

Çün giryei zari eylədi zadei Zəhra,
Olmadı belə zadə nə Musa nə Məsiha,
Gördülər onun tələbi bir özgədi guya,
Hey səca deyər ağlar belə sərv səmaç olmaz.

Çün aldı qucağına Hüseyn Zeynəbi zarı,
Qoy ağlamağın Kərbəlaya səni Tanrı,
Üryan dəvələr üstə gedən Şama qatarı,
Əsir olarsız sizlərə bir rəhm edən olmaz.

Buyurdu Hüseyn Zeynəbə ay kani məhəbbət,
Mən Kərbəla içrə içim cami şəhadət,
Ay bacı çəkərsən o zamanda necə zillət,
Üç gün şühəda nə'şinə bir qəbrkan olmaz.

Əbbas qolunu ab Fərat üstə salarlar,
Gül peykəri üç gün quru yer üstə qalarlar,
Zülm ilə qara mə'cərını başdan alarlar,
Ol Şimri (1) sitəmkar kimi zülm edən olmaz.

Çün zülmi sitəmlər olunub Kərbəlada,
Kaf ayəsini başınm oxur noki cidada[1],
Səkinə gedər başı açıq Şama piyada,
Qolu bağlı o nəvailə əsir xətan olmaz.

Qalxar o zaman fələgə naleyi fəryad,
Ol vaxtda bir kim sənə etməz sizə imdad,
Ənkəşt səliminə qoyar xəncəri fulad,
Heç kimsə səxavətdə Hüseyn, Həsən olmaz.

Heç kimsə axır bu səxavətdə dayanmaz,
Candan keçə ləb təşnə bu zillətdə dayanmaz,
Başdan keçən ol cami şəhadətdə dayanmaz,
Əbbas kimi şiri Xuda səf şikən1 olmaz.

---

[1] *Noki cidada- cidanın ucunda.*

Yandırdı bu dünyanı qəmu naləvü Zeynəb,
Az qaldı səmadan ki, tökülsün yerə kokəb,
Yox Şimridə ərkan nə din, nə də məzhəb,
Xəncər tutub əldə belə mərd kahan olmaz.

(Seyyid) möhtəsildir ruhinə pornur,
Bir lütf eylə gəl salma qapından məni sən dur,
Qələm Hüseyn ibni Əlidir ona məstur,
Ömrün bu müsibətdə belə sərfedən olmaz.

## SULTANİ QEYS

***Mən Hüseyni bey kəsi beyyaram, ey sultani Qeys,***
***Bir ələmdarı ölən sərdaram, ey sultani Qeys.***

Gör nə hala salıbdı peykəri səd parəmi,
Bir tərəfdən ləşgəri əşrar üzübdü çarəmi,
Səsləyəndə sən məni bağlardı Zeynəb yarəmi,
Səsləsə hər kəs ona qəmxaram, ey sultani Qeys.

Əhli-Beytdi qoymuşam kuffar içində gəlmişəm,
Xarə çox gül tapşırıb gülzar içində gəlmişəm,
Qoymuşam bimarımı əşrar içində gəlmişəm,
Gərdişi çərx ilə, mən çox xaram, ey sultani Qeys.

Getdi ümmu ənsarım sındı balu pərim,
Neynava dəştidə zülmilə qırıldı ləşgərim,
Təşnə Qurban oldu on səkkiz yaşlı Əkbərim,
Gör ki, mən bey taqəti rəfdaram, ey sultani Qeys.

---

[1] *Səf şikən – səfləri qıran olmaz.*

Qasimə toy eylədim bir ləhzədə yas etdilər,
Novcavan qardaşlarım bir-bir əlimnən getdilər,
Ciddimin düşmənləri hər yerdə kama yetdilər,
Paimali mə'neyi əğyaram, ey sultani Qeys.

Çün məni meydanda həm Şimri sitəmkar axtarır,
Bir şikarı zəxmidarı əlində xəncər axtarır,
Bir yaralı seydi yüz min foclu ləşgər axtarır,
Mən ki, seydi Şimrə bəd giridaram, ey sultani Qeys.

Qorxma mən gəldim səni şirin əlindən qurtaram,
Taqətim yoxdur at üstə durmağa çoxdur yaram,
Yeddi qardaşdan sonra insafdırmı mən sağ qalam,
Lərzə dutmuş peykərim xunbaram ey sultani Qeys.

Çün şah təşnəni sən səslədin fəryadına,
Par-parə cism ilə gəldim yetişdim dadına,
Ağla çün əhvalıma hər dəm düşəndə yadına,
Oğlu ölmüş həsrəti didaramey sultani Qeys.

Hər nə gəlsə razıyam ol mahi Mədinəm başına,
Od dutubdu hicri Əkbərdən bu sinəmin başına,
Şimri kafər vurmasın qamçı Səkinəm başına,
Mən əzizi Heydəri Kərraram ey sultani Qeys.

Göz yaşları məlhəmdi yaralı sinəmə,
Sidqi avazla səslər qıl şəfət sən mənə,
Ruzi şəb qan ağlaram həşr olunca mən sənə,
Çünki mən də qəbrinə zuvvaram ey sultani Qeys.

## SÖYLƏ HÜSEYNƏ EY ƏRƏB

Söylə Hüseynə ey ərəb Kərbibəlaya getdilər,
Fatiməni əcəb salıb dərdi bəlaya getdilər.

Söylə ona fəğan ilə əlili natəvan qızın,
Mərizi xəstədir edir şami səhər fəğan qızın,
Fərağı Əkbər eyləyib çün kaman qızın,
Virdi zəban edibdi kin Kərbibəlaya getdilər.

Söyləginən Hüseynə ki, ey şahi insi can baba,
Siz gələsiz Mədinəyə eyləmirəm güman baba,
Əkbəri yollaram dedin gəlmədi əl aman baba,
Tərk eyləyib Mədinəni dəşti bəlaya getdilər.

Əkbərə söylə ey ərəb rəhm eləsin azarimə,
Şərəf ilə özün yetir Kərbibəla diyarinə,
Sağ tərəfində ol şahın eylə nəzər üzərinə,
Söylə salıb bu bikəsi dərdi bəlaya getdilər.

Söylə əmimə ey ərəb çoxdu onun dəyanəti,
Qeyrətinə oldum fəda əmmələrim əmanəti,
Cəngə girəndə verməsin düşmənə heççə fürsəti,
Qorxum odur xəzan əsə Ali Əbaya getdilər.

Söylə Səkinəyə ey ərəb əldə kəlamım ağlaram,
Bəs ki yetiməm ay bacı sübh ilə şamı ağlaram,
Əkbərə söylə gəlməsə mən də müdami ağlaram,
Naləmi sallam ol zaman ərşi Xudaya getdilər.

Qasimə söylə ey ərəb onda vəfa da qalmayıb,
Kərbəlada toy eyləyib heç məni yada salmayıb,
Yoxsa yasa dönüb toyu Fatimə kamın almayıb,
Mülki İraqı xoş görüb zövq səfaya getdilər.

Zeynəbə söylə ey ərəb tərk eləyib Mədinəni,
Yekki, qoyub Mədinədə bəs niyə bu mərizəni,
Cəm aparıb hərəmləri bir də bacım Səkinəni,
Yetmiş iki cavan ilən kuhi Minaya getdilər.

## DUR EY QANA BATAN

***Dur ey qana batan ətşan Hüseyn vay,***
***Quru yerdə düşən üryan Hüseyn vay.***

Kəsiblər başını üdvan yaralı,
Keçibdir nizəyə ətşan yaralı,
Qalıb gül peykərin üryan yaralı,
Olub qüslün sənin əl qan Hüseyn vay.

Keçibdir nizəyə başın bədənsiz,
Bu gün qalıb qardaş bülbül çəmənsiz,
Qum üstündə cismin məcruh kəfənsiz,
Dəyibdi xəncəri peykər Hüseyn vay.

Boyandı qan ilə gül tək camalın,
Dağıldı çöllərə bi kəs əyalın,
Hanı qardaş sənin cahi cəlalın,
Olubdur zülm ilə talan Hüseyn vay.

Gərək daim qıla əfğan bu Zeynəb,
Yaralı başına qurban bu Zeynəb,
Necə görsün səni üryan bu Zeynəb,
Olubsan xak ilə yeksan Hüseyn vay.

Bəradər qıl nəzər nazlı Səkinə,
Gülü novrəsteyi bağı Mədinə,
Yetim olmuş düşüb Şimrin əlinə,
Qolu bağlı gözü giryan Hüseyn vay.

Bərадər neyləyim bir yavərin yox,
Oğul yox, qardaş yox, ləşgərin yox,
Bacın ölsün biləkdən əllərin yox,
Olubsan qanına qəltan Hüseyn vay.

Gözünü qoymadılar bağlayam mən,
Bu qəlbim zülm odu ilə dağlayam mən,
Səni qoymadılar bir ağlayam mən,
Vurar mənə qamçı üdvan Hüseyn vay.

Fələk saldı məni ayrı vətəndən,
Necə ki, bülbül ayrı çəməndən,
Necə mən ayrılım o gül bədəndən,
Nəsib oldu mənə hicran Hüseyn vay.

## BABACAN BU ÇÖLDƏ YANDIM

***Babacan bu çöldə yandım məni binəva susuzdan,***
***Edib əşqiyalar axır günümüz qara susuzdan.***

Aparıbdır qan əmimi yuxudan neylim oyanmaz,
Tutub od dəhanı ləbim quruyub dilim dolanmaz,
Deyirəm bu kufiyana susuzam biri inanmaz,
Olub əndəlib tək hər işim nəva susuzam.

Baba qorxuram piyadə qoyalar məni yetimi,
Dəvədən çəkib aşağı salalar məni yetimi,
Gecə gündüz at döşündə qovalar məni yetimi,
Hanı dizimdə taqət sənə mən fəda susuzdan.

Söylə hansı kafir oğlu eylədi başın bədənsiz,
Düşüb isti qumlar üstə cismin qalıb kəfənsiz,
Baba qorxuram piyadə aparalar Şama sənsiz,
Baba ayrı düşmüşəm gər cigərim yana susuzdan.

Əli qoltuqda bax gör necə bağrı qan Səkinə,
Baş açıq diyari şamə olubdur rəvan Səkinə,
Baba sinən üstə üç il gecələr yatan Səkinə,
Yuxu yox gözündə rahət ola bir zaman susuzdan.

Necə rəvadır qanına boyana Əliyi Əkbər,
Nə dil ilə oxşayım mən oyana Əliyi Əkbər,
Gəzə bu dədi dəhri dolana Əliyi Əkbər,
Tapa bəlkə bir içim su ölürəm baba susuzdan.

Hanı Heydər adlı babam bu çölü xarab edəydi,
Cigərimi yandıranlar cigərin kəbab edəydi,
Məni yetimə bir içim su veribən səvab edəydi,
Ona mən edəydim onda baş açıq dua susuzdan.

Baba zülm ilə ayırıllar məni səndən əşqiyalər,
Dizimə vurullar qamçı başıma bu bihəyalər,
Nə edim əsiri Şimrəm edəcəkdi hər cəfalər,
Bir içim su versə olaram sitəmə riza susuzam.

Nə idi günahın ayə bu qədər yara vurublar,
Başın kəsib bu oxlar ki sora vurublar,
Ki, dəyib keçib dalından yerə torpağa vurublar,
Ürəyimdə var mənim də bir elə yara susuzdan.

Gecə-gündüz əbru çeşmin eylə əşki bari (purğəm),
Ki, bu qüssədə tapılmaz belə novbari (purğəm),
Gözü yolda təşnə ləblər qalıb itizari (purğəm),
Nə rəvadır gülşəni din saralıb sola susuzdan.

## MÜNDƏRİCAT

İmam Hüseyn (ə) vücudunun bərəkət və özəllikləri ………………… 3
HÜSEYNƏ YERLƏR AĞLAR....................6
HƏZRƏT ƏLİNİN (Ə) HƏZRƏT FATİMƏNİN (Ə)....................7
QƏBRİ ÜSTÜNDƏKİ ZƏBAN HALI....................7
HƏZRƏT ƏLİNİN FATİMEYİ ZƏHRANIN....................9
QƏBRİ ÜSTÜNDƏKİ ZƏBAN HALI....................9
HARİS ÖLDÜRMƏ BİZİ....................10
HƏZRƏT ƏLİ ƏSĞƏRİN MƏRSİYƏSİ....................11
İMAM HÜSEYN VƏ ƏBÜLFƏZLİN DEYİŞMƏSİ....................14
ƏBBAS, ƏBBAS....................15
DÜŞDÜ ƏBÜLFƏZLİN ADI DİLLƏRƏ....................17
EY XANİDANİ HEYDƏRİN QƏMXARI ZEYNƏB....................18
HARA GEDİRSƏN AY BABA....................19
QOYUN QILIM NAMAZIMI....................19
HÜSEYN VAY....................20
YARALANDIM BACI ZEYNƏB....................22
ƏZRƏT ZEYNƏBİN İMAM HÜSEYNƏ....................22
XİTABƏN ZƏBAN-HALI....................22
DİN EHTİRAMIN SAXLADIN....................24
QALƏ RƏSULULLAH (S)....................25
ALLAHA TAPŞIRDIM SƏNİ....................26
AÇ GÖZÜN QANINA QƏLTANIM OĞUL....................27
GÖRDÜ QOŞUN ŞİBHİ-PEYAMBƏR GƏLİR....................29
XƏNCƏR VURULDU ƏKBƏRƏ....................31
İMAM HÜSEYN ƏLEYHİSSƏLAMIN OĞLU ƏLİƏKBƏRİN BAŞI ÜSTÜNDƏKİ ZƏBAN-HALI....................32
YATMA YARALISAN....................33

LƏB TEŞNƏ VERİB ........................................ 33
XIRDA QƏBRÜVƏ ZEYNƏBİN QURBAN ........................................ 35
RUQƏYYƏ NAZLI SURƏTİN, QOYMA DİVARƏ ........................................ 36
VİRANƏDƏ NAZLI BALAM CAN VERDİ DİNCƏLDİ ........................................ 38
KƏRBƏLA ........................................ 41
PEYĞƏMBƏR VƏFATINDA ........................................ 42
GƏL HÜSEYNİM GƏL ........................................ 44
SƏQQAYİ-ƏTŞANAM - QANIMA QƏLTANAM ........................................ 44
QANINA QALTAN OLAN ........................................ 45
SƏNSİZ ........................................ 46
QALAN CƏNAZƏSİ ÜRYAN ........................................ 47
ƏZİZİ FATİMƏ ........................................ 48
HÜSEYN SƏNİN HALINA O GÜN ........................................ 49
FƏRAĞINDAN ƏLİ MƏN CANA GƏLLƏM ........................................ 51
YARALI ƏKBƏRİM ........................................ 53
ƏLİ ƏKBƏRİM GÖZ AÇ BALAM ........................................ 54
SÖYLƏ HÜSEYNƏ EY SƏBA ........................................ 55
ŞAMA LEYLANI ÇƏKƏN ........................................ 57
BARİ İLAHİ ........................................ 58
RƏHMİ QIL, EY ŞİMRİ DUN ........................................ 60
AY SALAN ÇÖLLƏRƏ LEYLANI ........................................ 61
AY BATAN LALƏ KİMİ ........................................ 62
ALƏM NİYƏ BƏS OLMADI VIRAN, ƏLİ ƏKBƏR ........................................ 63
GƏLDİ GÜL HƏSRƏTİ ........................................ 65
ƏLİ BİRCƏ AYAQ SAXLA ........................................ 66
BU GÜN KƏRBƏLA VİRAN OLUBDUR ........................................ 67
DUR AY QUMLAR ÜSTƏ ÜRYAN HÜSEYNİM ........................................ 68
BALAM VAY ........................................ 69
YAVAŞ YERİ DİLBƏRİM ........................................ 70
AY DÜŞƏN GÜL BƏDƏNİ ........................................ 72

BU GECƏ KƏRBƏLADA NECƏ TUFAN OLACAQ ........................... 73
NƏ RƏVADIR BABACAN ........................................................... 74
KƏRBƏLANIN BÜLBÜLÜSƏN ....................................................... 75
QALAN NƏ'Şİ ARADA ............................................................... 76
BU GECƏ OL GECƏDİR ............................................................. 77
AY ÖLƏN TƏŞNƏ LƏB ............................................................... 78
AH GƏLİN AĞLIYAQ ................................................................. 79
XEYMƏLƏRƏ ƏMMƏ CAN ......................................................... 81
AY TƏŞNƏ LƏB KƏRBƏLA ......................................................... 82
KƏRBƏLAYA GƏLDİ ÇÜN PEYĞƏMBƏR ....................................... 84
VA HƏSƏNİ MÜCTƏBA ............................................................ 85
ABAD OLA EVİN QƏMXANƏ KƏRBƏLA ........................................ 87
TEZ YETİR BİRCƏ ÖZÜN .......................................................... 89
GƏL HALAL EYLƏ ƏZMİ MEYDANIM ANA ................................... 90
QARDAŞ BULAŞIB NİZƏDƏ AL QANA BU BAŞIN ........................... 92
GƏLMİŞƏM KƏRBƏLAYA .......................................................... 93
BAXDI ÇÜN ƏKBƏRİNİN NİZƏDƏ LEYLA ÜZÜNƏ ............................. 94
DUR AY DAVALAR ASLANI ........................................................ 96
YA ƏMİRƏL-MÖ'MİNİN ............................................................ 97
GETMƏ BU MEYDANA ............................................................. 99
ÖLÜRƏM BİRCƏ YETİŞ DADƏ ƏMİ ............................................ 100
AY ŞAHİ DÖVRAN OĞUL ......................................................... 102
ZEYNƏB KİMİ DÜNYADA BƏLALAR ÇƏKƏN OLMAZ ...................... 106
SULTANİ QEYS ...................................................................... 108
SÖYLƏ HÜSEYNƏ EY ƏRƏB ..................................................... 110
DUR EY QANA BATAN ............................................................ 111
BABACAN BU ÇÖLDƏ YANDIM ................................................. 112